www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 iyul 2014-cü il Cümə axşamı № 175 (5884) Qiyməti 40 qəpik

**Xəbər**

## Qazax yolunda iki nəfər "QAZel"də diri-diri yandı

yazısı səh.14-də

**Gündəm**

### Moskva Qarabağa dair öz oyununa başlayıb



Ekspertlərə görə, Rusiyanın problemin həllinə baxışı kardinal dəyişikliyə uğramayıb, sadəcə, taktika dəyişib; "Azərbaycanın xeyrinə ciddi dönüş gözlənilmir...

yazısı səh.11-də

### Həbsdəki vitse-admiral vətənə xəyanətdə ittiham olundu

yazısı səh.7-də

### Rauf Mirqədirov bu həftə dindirilə bilər

yazısı səh.4-də

*Cəza dəyişmədi:*

### Qurban Məmmədov həbsdə qaldı

yazısı səh.6-da

### Güllələnən zabit müdafiə nazirinin oğlunun tələbə yoldaşı imiş

yazısı səh.10-da

### Aslan İsmayılov qətldə iştirakla bağlı ittihamlara cavab verdi

yazısı səh.10-da

### Rusiya Azərbaycana təzyiqi azaldıb, yoxsa...

yazısı səh.9-da

### İcra başçısı jurnalisti tutdurmaq fikrindən əl çəkmir

yazısı səh.4-də

### Müxalifət EL funksionerinə sərt cavab verdi

yazısı səh.3-də

### Yollara səpələnən milyardlar və nazirin "Qranat Holdinq"i...

yazısı səh.7-də

**Ramazan ayının 12-ci günü**

İftar 21.29. İmsaq (azan) 4.51 (QMİ-nin cədvəli)

12-ci günün duası: "İlahi, məni bu gün günahdan qorunub, iffətli olmaqla zinətləndir! Mənə kifayət edən halal mal ver və qənaət libasını mənə geyindir! Məni belə bir gündə ədalət və insafla yaşamağa müvəffəq et! Məni qorxduğum işlərdən amanda saxla! Ey, qorxanların İsməti və Qoruyanı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Obama Azərbaycandakı təzə elçisinin adını açıqladı

# ABŞ "WİKİLEAKS"DƏ ADI KEÇƏN DİPLOMATI BAKIYA SƏFİR GÖNDƏRİR

Riçard Morninqstarı əvəzləyəcək Robert Cekuta da sələfi kimi Amerikanın enerji lobbisini təmsil edir; Rusiyanın regiona artan təhdidləri fonunda Ağ Ev ölkəmizlə münasibətləri yeni müstəviyə çəkir



Robert Cekuta

yazısı səh.9-da

# "Hafka" bankın pulunu götürüb qaçıb

"Bank of Azerbaijan" qarşısında əlbəyaxa dava düşüb; medianın ən çox yazdığı iş adamı Hafiz Məmmədov kimdir?

yazısı səh.5-də



*Əli Mirəliyev:*

### "Bir millətin ki, mədəniyyət naziri Əbülfəs Qarayevdir, vay o millətin halına"

yazısı səh.3-də



*Hikmət Hacızadə:*

### "Adnanın məsələsində Obama demişdi ki..."

yazısı səh.8-də



*Aleks Qriqoryevs:*

### "Hakimiyyətin devrilməsi məsələsi sadəcə cəfəngiyyatdır"

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014



## Prezident səfirləri qəbul edib

**"AzərTAc" xəbər verir ki, iyulun 9-da prezident İlham Əliyev Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərin rəhbərləri ilə görüşüb. Dövlət başçısı görüşdə çıxış edib.**

## 3 milyon manatlıq yeyinti: vəzifəli şəxslərə cinayət işi qaldırılıb

**İyulun 9-da Baş Prokurorluğun mətbuat xidməti rəsmi məlumat yayıb. Qeyd olunur ki, "Debut" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz hərəkətlərindən İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Araşdırma zamanı bilinib ki, büdcə vəsaiti hesabına müvəkkil kredit təşkilatı kimi "Debut" Kommersiya Bankına 2006-2008-ci illərdə ayrılmış 2 milyon 961 min 500 manat güzəştli krediti bankın vəzifəli şəxsləri mənimsəyib. Faktla bağlı Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə), 195.2 (külli miqdarda ziyan vurmaqla qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

## Ukraynanın daxili işlər nazirinin həbsinə fərman verildi

**Moskva məhkəməsi Ukrayna daxili işlər naziri Arsen Avakovun həbs olunmasına fərman verib. Avropa.info-nun xarici KİV-ə istinadən verdiyi xəbərə görə, məhkəmə qiyabi qərarı bu gün verib. Qərarda qeyd olunub ki, yaxın zamanlarda Arsen Avakovun istintaqa cəlb olunması üçün addımlar atılacaq.**

Qeyd edək ki, Moskva məhkəməsi bir müddət öncə, Dnepr şəhərinin meri İqor Kolomoyski haqda da həbs qərarı verib. Hər iki şəxs Ukrayna ərazisində insanlığa qarşı cinayət törətməkdə ittiham olunurlar.

## "Daha dərin müayinələr aparılacaq"

**Leykozdan müalicə olunan jurnalist Nicat Dağlar yenidən Almaniyaya yola düşüb. O, 1 illik müalicənin yekunu olaraq müayinələrdən keçməlidir. Özünü yaxşı hiss etdiyini və müalicəsinin müsbət nəticə verdiyini açıqlayan jurnalist bu dəfə müayinə prosesinin daha əhatəli olacağını deyib: "Müalicəmin nəticəsi ürəkaçandır. Bu dəfə ötən 1 il ərzində keçdiyim müalicə prosesinin nəticəsi müəyyənləşdiriləcək və daha dərin müayinələr aparılacaq. Ümid edirəm ki, müayinələr bu dəfə də arzuladığımız nəticəni verəcək. Şükür Allaha ki, özümü yaxşı hiss edirəm və artıq bir müddətdir normal iş fəaliyyətimi də bərpa etmişəm".**

Nicat Dağların müalicəsi prezident İlham Əliyevin göstərişi ilə dövlət hesabına aparılır. O ilk dəfə Almaniyaya ötən ilin iyun ayında yollanıb, bu müddət ərzində üç dəfə Bad Vildungen şəhərinin Hematologiya Klinikasında müalicə və müayinə prosedurlarından keçib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Elmarın doğum günü qeyd olunacaq

**İyulun 17-də mərhum jurnalist Elmar Hüseynovun doğum günü qeyd ediləcək. Naşir Şahbaz Xuduoğlu "Mediaforum" saytına bildirib ki, Elmar Hüseynovun Qurd qapısı qəbiristanlığındakı məzarı ziyarət olunacaq: "Ad günündən bir həftə əvvəl elan veriləcək, mərasimin saat neçədə olacağı bildiriləcək".**

1967-ci il iyulun 17-si Bakıda anadan olan Elmar Hüseynov jurnalistikaya 1990-cı illərin əvvəllərində gəlib. Bir neçə rusdilli media quruluşunda çalışan jurnalist daha sonra "Monitor" jurnalını nəşr edib.

Elmar Hüseynov 2005-ci il martın 2-də Bakıda, yaşadığı evin blokunda odlu silahla qətlə yetirilib. İstintaqı Milli Təhlükəsizlik Nazirliyi aparır. İndiyədək qətlin nə icraçıları tapılıb, nə də sifarişçiləri.






## Tağı Əhmədov danışdı

**Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədov bəzi mətbu orqanlarda Ağcəbədiyə icra başçısı vəzifəsinə təyin olunacağı barədə yayılan məlumatlara münasibət bildirib.**

T.Əhmədov publika.az-a açıqlamasında yayılan məlumatlardan xəbərsiz olduğunu söyləyib:

"Mən bu cür məlumatı ilk dəfə sizdən eşidirəm. Necə vəzifədir ki, mənim xəbərim yoxdur? Belə çıxır ki, jurnalistlər sabah xəbərim olmadan məni evləndirəcəklər. Hamısı yalan söhbətlərdir".

Xatırladaq ki, bəzi mətbu orqanlarda Bakı Meropoliteninin keçmiş sədri Tağı Əhmədovun Ağcəbədiyə icra başçısı təyin olunacağı ilə bağlı xəbərlər yayılıb.

## Ağdamda minaya düşən çoban öldü

**İyunun 9-da səhər minaya düşən Azərbaycanın mülki vətəndaşı dünyasını dəyişib. Lent.az-ın "anspress"ə istinadən xəbərinə görə, Yevlax rayonunda çoban işləyən Mirzə Vəli oğlu Həmzəyev yerləşdirildiyi hospitalda dünyasını dəyişib.**

Qeyd edək ki, minaya düşən Mirzə Vəli oğlu Həmzəyev 1964-cü il təvəllüdlüdür. Onun Yevlax rayonundan gəldiyi bildirilir.

O, Ağdama oğlunun yanına gəlibmiş. Mirzə Həmzəyev ərazini yaxşı tanımadığı üçün neytral zonaya keçib və minaya düşüb.

## "Müttəfiqimizin Azərbaycana silah satması xalqımızı narahat edir"

**Argentinaya rəsmi səfər edən Ermənistan prezidenti Serj Sərkisyan "La Nacion" qəzetinə müsahibə verib. "Mediaforum" saytının məlumatına görə, Sərkisyan Dağlıq Qarabağ münaqişəsinə toxunaraq hərbi əməliyyatların bərpasını istisna etməyib. O, Azərbaycanın təhlükə mənbəyi olduğunu iddia edib, ancaq qeyd edib ki, bu ölkənin hərbi texnika və silah-sursata külli miqdarda pul xərcləməsi qələbəyə təminat vermir.**

Ermənistan lideri Rusiyanın son vaxtlar Azərbaycana 2 milyard dollar həcmində silah satdığına toxunub və deyib: "Strateji müttəfiqimizin Azərbaycana silah satması xalqımızı çox narahat edir. Ancaq mən inanıram ki, Ermənistanın öz sərhədlərini qorumağa gücü çatar. Rusiya Bakıya silah satsa da, bizim üçün çətin məqamda üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcəyinə şübhə etmirəm".

## "Gündən xəbər" əvəzinə "Gündəm şok xəbər"?

### Kollektiv istirahətə çıxıb, köşkdə pirat qəzet peyda olub

**"Gündəm Xəbər" qəzeti təxribatla üzləşib. Yay fəslində istirahətə çıxan qəzetin kollektivi köşklərdə eyniadlı və eyni dizaynlı qəzetlə rastlaşıb. "Gündəm Xəbər" in baş redaktoru Şirin Cəfəri bildirib ki, kollektiv istirahətdə olsa da, kimlərsə oxşar qəzet buraxır:**

""Gündəm şok xəbər" adlı qəzet "Gündəm xəbər" qəzeti kimi buraxılır. Bunu bizə qarşı təxribat sayıram. Oxuculardan xahiş edirəm ki, köşklərdən "Gündəm xəbər" qəzeti istəyərkən diqqətli olsunlar, onlara "Gündəm şok xəbər" adlı qəzet sırıya bilərlər. Bəyan edirəm ki, "Gündəm xəbər"in kollektivi istirahətdədir və qəzet fəaliyyətini müvəqqəti olaraq dayandırıb. Məzuniyyətdən qayıtdıqdan sonra fəaliyyətimizi bərpa edəcəyik".

❑ SEVİNC

## Azərbaycanlı fəal 52 günlük aclığı dayandırıb

**İranda Azərbaycan milli kimliyi uğrunda dinc mübariz, Kərəcin Rəcayişəhr zindanında saxlanan fəal Lətif Həsəni 52 günlük aclıq aksiyasını dayandırıb. Yeni Güney Azərbaycan Milli Oyanış Hərəkatının rəhbəri Lətif Həsəni mayın 18-dən aclıq aksiyası keçirirdi.**

O, qanunsuz təşkilat yaratmaqda və İranın təhlükəsizliyinə qarşı çıxmaqda təqsirli bilinərək 9 il həbsə məhkum edilib. Tutulandan sonra Təbriz zindanında saxlanan fəal bu yaxınlarda Tehranın Evin zindanına, iyulun 2-də isə Kərəc şəhərinin Rəcayişəhr həbsxanasına köçürülüb. Lətif Həsəni Rəcayişəhr həbsxanasında adi məhbusların yanına salınmasına etiraz bildirərək aclığı siyasi məhbuslar korpusuna köçürülənə qədər davam etdirəcəyini bildirmişdi.

"Mediaforum" saytı oyannews.com-un farsdilli versiyasına istinadla xəbər verir ki, azərbaycanlı fəalın həyat yoldaşı Əzəm Piri Lətif Həsəninin aclığı dayandırması ilə bağlı məktubunu iyulun 8-də facebook səhifəsində yayıb. Məktubda azərbaycanlı fəal ailə üzvləri və dostlarının nigaranlığını ortadan qaldırmaq üçün aclığı dayandırmaq qərarına gəldiyini bildirib.

## "Qərbin İŞİD-ə yardımı fəlakətlə nəticələnəcək"

**APA-nın "RİA Novosti" agentliyinə istinadən verdiyi xəbərə görə, əs-Sisi bəyan edib ki, Suriya və İraqdan sonra terrorçuların hədəfində İordaniya və Səudiyyə Ərəbistanı olacaq.**

"İŞİD"in Misiri də işğal etmək planları var idi. Mən onların İraqa, daha sonra isə İordaniya və Səudiyyə Ərəbistanına hücum etmək niyyətləri barədə ABŞ və Avropanı qabaqcadan xəbərdar etmişdim", - deyə Misir prezidenti bildirib.

Qeyd edək ki, iyunun 29-da İŞİD (İraq və Şam İslam Dövləti) terrorçu qruplaşması Suriya və İraqda işğal etdiyi ərazilərdə xilafətin yaradıldığını elan edib.



## Nazirlər Bakıda velosiped sürdülər

**Bakıda Azərbaycan Respublikası Mərkəzi Bankı və Maliyyə Nazirliyinin təşkilatçılığı ilə Dünya Bankı və Beynəlxalq Valyuta Fondunda ölkəmizin də daxil olduğu Seçki Qrupunun növbəti toplantısı keçirilib.**

Avtosfer.az xəbər verir ki, tədbirlə əlaqədar ölkəmizə gələn Polşanın maliyyə naziri Mateuş Şurek və bu ölkənin Mərkəzi Bankının sədri Marek Belka iş yorğunluğunu paytaxtımızın yollarında velosiped sürməklə çıxarıblar.

Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən tam texniki dəstək alan polşalı qonaqlar səhər saatlarında Azneft meydanından hərəkətə başlamaqla Heydər Əliyev prospektinə çıxıblar və daha sonra Buzovna - Bilgəh - Nardaran - Şüvəlan - Mərdəkan marşrutu ilə hərəkət ediblər.

Yolboyu Mateuş Şurek və Marek Belka həvəskar velosipedçilərə də qoşulublar.

Bilgəhdə, dəniz kənarında yüngül qəlyanaltı edən polşalı rəsmilər daha sonra geriyə qayıdıblar. Onlar ümumilikdə 80 km məsafə qət ediblər.

## Rusiyadan gəlib ahıl anasını öldürdü

**Tovuz şəhərində qətl hadisəsi törədilib. Rayon prokurorluğundan APA-nın qərb bürosuna verilən məlumata görə, hadisə şəhərin Nəsimi küçəsində baş verib.**

Tovuz rayon sakini, 38 yaşlı Əli Vəliyev 72 yaşlı anası Tamilə Quliyevanı bıçaqlayaraq qətlə yetirib. Uzun müddət Rusiyada yaşayan Ə.Vəliyev ölkəyə 10 gün əvvəl gəlib. Mərhum Tamilə Quliyeva ilə birgə yaşayan övlad anası ilə mübahisə etdikdən sonra onu bıçaqlayıb.

Ağır yaralanan ana qonşuya qaçıb və orada dünyasını dəyişib. Hadisəni törədən 38 yaşlı Əli Vəliyev isə cinayətini etiraf edərək polisə təslim olub.

Faktla bağlı Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi açılıb, araşdırma aparılır.

Qeyd edək ki, 2 oğul, bir qız anası olan 72 yaşlı qadın uzun müddət Tovuz Mərkəzi Rayon Xəstəxanasında tibb bacısı kimi çalışıb.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014

# Məşhur müğənnidən nazir haqda kəskin tənqid


Əbülfəz Qarayev

**Azərbaycan efirinin biabırçı vəziyyəti daim müzakirə edilir. Bu sahədəki vəziyyət hətta hakimiyyətin özünü də narahat edir. Vaxtaşırı bu mövzuya toxunulur. Müəyyən müzakirələr aparılır, hətta dövlətin ən yüksək məqamında təmsil olunan məmurların bu sahə ilə bağlı rəsmi mətbuatda böyük tənqidi məqalələri dərc edilir. Lakin vəziyyət düzəlmir. Əksinə, daha da bərbadlaşır.**

Verilişlərin bayağılığı, aparıcıların şitliyi və savadsızlığı göz deşir. Azca səviyyəli tamaşaçı Azərbaycan televiziyalarını izləməkdən birmənalı imtina edib.

Bir yandan da səviyyəsiz, savadsız müğənnilər efiri işğal edir. Milli efir demək olar ki, onların ixtiyarındadır. Bəzən bu müğənnilər efirdən elə səhvlər buraxırlar ki, bu səhv günlərlə mediada dartışılır. Elə bu yaxınlarda xalq artisti Səməd Səmədov "Space"in efirində yayımlanan "Hər bir havada" verilişində əfsanəvi tarzən Qurban Pirimovu təhqir edib. S.Səmədov "Qurban Pirimov kimdir" sualına əcaib cavab verib. Müğənni "söndürün kameranı. Mənim dörd dənə itim var. Hərdən onların da adı yadımdan çıxır" deyərək özünə haqq qazandırıb. Qeyd edək ki, bu, S.Səmədovla bağlı ilk belə hadisə deyil. O, bundan öncə Azərbaycanın dövlət himninin müəlliflərini tanımaması ilə gündəmə gəlmişdi.

Bu cür səviyyəsiz, savadsız müğənniləri efirə buraxmaq bir yana, onlara ən yüksək fəxri adlar da verilir.

**Televiziya mütəxəssisi Zeynal Məmmədli teleefirdəki problemlərin, bayağı verilişlərin yaranma səbəblərini peşəkar rəqabətin olmaması ilə əlaqələndirir:** "O yerdə ki, media, söz azadlığı yoxdur, orada əyləncə vasitə yox, nəyisə öyrənmək üçün məqsədə çevrilir. Yəni özü özlüyündə bu, informasiyaya yox, beyin yumağa xidmət edir. Bunu da təbii qarşılamaq lazımdır. Çünki bu, Azərbaycanın mövcud vəziyyəti ilə bağlıdır. Söz və ifadə azadlığı ilə bağlı problemlər istər-istəməz efirdə öz əksini tapır, efirdə sərbəstlik qorxu yaradır. Televiziyalarda peşəkar rəqabət yoxdur. Bütün bunlara səbəb sərbəst bazarın olmamasıdır. Sərbəst bazar yoxdur deyə yaxşılar, bacarıqlılar öndə olmur. Əgər burada peşəkar olmaq pul gətirmirsə, heç kim peşəkar olmayacaq. Ona görə də bu cür bayağı verilişlər baş alıb gedir. Bir var səbəb, bir də var nəticə. Xalq artistinin himni bilməməsi nəyinsə nəticəsidir. Nəticə nədir? Himnə sayğı oyatmaq, himnlə bağlı detalların, onun yaranma tarixini insanlara məktəbdən aşılamaq lazımdır. Bugünlərdə Azərbaycanın himnini London orkestri yeni versiyada ifa edib. Bunun təbliği sosial şəbəkələrdə yayılmadı. Bütün bunlar olmayandan sonra istər müğənni, istərsə də futbolçu olsun, onu hədəf obyekti kimi götürmək düzgün deyil. Səbəbi axtarmaq lazımdır. Məsələnin kökü yaradıcı azadlığın olmamasındadır".

**Müğənni Əli Mirəliyev bütün günahın Mədəniyyət və Turizm Nazirliyində olduğunu dedi:** "Səmədə kim xalq artisti adını verib?! Azərbaycanın dilini, musiqisini bilmir. Söhbət yalnız Səməddən getmir. Onun kimi çox müğənnilər var. Bu insan Qurban Primovu tanımır, itinin adını yadından çıxardığını deyir. Bu insanlar jurnalistin qarşısına bu cür cavablarla gəlir. Hər kəs öz yerində olsaydı, bu gün belə problemlər yaşanmazdı. Bir millətin ki, mədəniyyət naziri Əbülfəz Qarayevdir, vay o millətin halına. Ad alan bəzi müğənnilər var ki, onlar hamısı bunu pulla alır və ya adamları var. Onları dəstəkləyən adamların sırasında deputatlar, nazirlər, iş adamları var. Televiziya kanallarına da onların çıxışları var. Pullarını verib çıxır ağzına gələni danışır. Musiqidən sual veriləndə deyir ki, Əli kimdir ki, mənim ürəyim belə istəyir, belə oxuyuram. Əli Mirəliyev görür ki, siz Hacıxan Məmmədovu, Cahangir Cahangirovu və digər korifeylərimizi tanımırsız, bilmirsiz musiqi nədir. Siz köhnə musiqiləri korlayırsınız. Mən bütün bunları kanallarda deyirəm. Mənə deyirlər ki, sənin nəyinə lazımdır, kim nə istəyir oxuyur. Bunu necə edə bilərəm?! Atı öz başına qoysan hara gəldi gedər. Hər sahədə müəyyən dəqiqlik, düzgünlük olmalıdır. İnsan pulla həkim, müğənni ola bilməz. İnsanda istək, istedad, vergi olmalıdır. Bizim müğənnilərimiz hər şeydən yarımçıqdırlar. Ona görə də bizim təhsilimiz, musiqimiz və digər sahələrimiz bərbad haldadır. Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət Nazirliyi hara vaxır?! Bunlar respublikanı dağıdırlar. Prezident bunlarla mübarizə apara bilmir. Bunlar azğınlaşıblar. Biz artıq uçurumdayıq. Prezident gözəl qərarlar çıxardır. Amma heç biri həyata keçmir. Hansısa qüvvələr bunun qarşısını alır. Bütün sahələr pis gündədir".


**Əli Mirəliyev:** "Bir millətin ki, mədəniyyət naziri Əbülfəz Qarayevdir, vay o millətin halına"


**Zöhrə Əliyeva:** "Xalq artisti adının verilməsi təkcə bizim təşkilatda həll olunan məsələ deyil"

**Məsələ ilə bağlı Mədəniyyət və Turizm Nazirliyinin də fikrini aldıq. Nazirliyin mətbuat katibi Zöhrə Əliyeva tituların verilməsini yalnız onların təşkilatının həyata keçirmədiyini dedi:** "Nə adları mən verirəm, nə də ki bu siyahıdan xəbərim olur. Bu məsələlər yüksək səviyyədə həll olunan məsələlərdir. Belə lazım bilinir, belə də olur. Səməd Səmədov xalq arasında kifayət qədər populyar adamdır. Onu sevməyənlər varsa, sevənləri də çoxdur. Uzun illərdir ki, çalışır, sənətdədir. Həm də ki, xalq artistləri adının verilməsi təkcə bizim təşkilatda həll olunan məsələ deyil. Prezident səviyyəsində həll olunan məsələlər var. Ad verilərkən onun uzun illərdir sənətdə olması, səsi, xalq arasındakı hörməti nəzərə alınır".

❑ Günel MANAFLI

# Müxalifət EL funksionerinə sərt cavab verdi

## Əksər siyasətçilər Eldəniz Quliyevi hadisələri düzgün qiymətləndirə bilməməkdə suçladılar; onunla razılaşanlar da oldu

**Müxalifət partiyalarının mübarizəsinin fiaskoya uğradığını, yeni siyasi qurum yaratmağın lazım olduğunu deyən EL Hərəkatının Ali Məclisinin sədri Eldəniz Quliyevin fikirləri birmənalı qarşılanmayıb. E.Quliyevin bu düşüncəsi ilə razılaşanlar da var, razılaşmayanlar da.**

**Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı** E.Quliyevin partiyaların fiaskoya uğraması haqda dedikləri ilə razılaşmadı: "Siyasi partiyaların siyasi mübarizədə fiaskoya uğraması ilə bağlı fikir söyləmək üçün Eldəniz Quliyevin kifayət qədər faktları da yoxdur. Heç olmasa əvvəllər bir siyasi partiyada rəhbər vəzifədə fəaliyyət göstərsəydi, bu haqda fikir bildirməsi daha məntiqli olardı. Amma indiki halda Eldəniz Quliyev bir az qabağa gedib. Onun yeni bir qurum yaranması fikrinə gəlincə, daim demokratik düşüncəli insanlar yeni bir qurumun yaranması, Azərbaycanda olan bütün müxalifət qüvvələrinin həmin dairədə toplaşması haqqında arzularını bildirirlər. Bütün variantlar yoxlanılır, sınaqdan keçirilir və aydın olur ki, Azərbaycan müxalifətinin bir yerdə fəaliyyət göstərməsi mümkün olmur. Ötən il yaranmış Milli Şura məsələsi də göstərdi ki, belə bir birliyin yaranması qələbə əldə etmək üçün yetərli deyil. Ona görə də bu axtarışlar bu gün də var, həmişə də olacaq. Təbii ki, bunlar da arzulardır. Eldəniz Quliyev hansı arzuları həyata keçirmək istəyirsə, ona ancaq bu işdə müvəffəqiyyətlər arzulaya bilərəm".

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə mübarizə aparmağın tək yolunun siyasi partiyalardan keçdiyini dedi:** "Azərbaycanda mövcud qanunlar çərçivəsində mübarizə apara biləcək qurum siyasi partiyadır. Vətəndaş cəmiyyətləri, qeyri-hökumət təşkilatları siyasətlə məşğul ola bilməzlər. Siyasətlə partiyalar məşğul olur. Ona görə də insanlar istəsə də, istəməsə də bu partiyalarda toplanmalıdır. Təbii ki, hakimiyyət çox istəyir ki, siyasi qurumlar, partiyalar zəif olsun. Biz də bunu şüurlu şəkildə başa düşürük ki, mübarizə üçün siyasi partiyalardan başqa yol yoxdur".

**AXCP Rəyasət Heyətinin üzvü Sahib Kərimli:** "Hesab etmirəm ki, Azərbaycanda siyasi partiyaların mübarizəsi fiaskoya uğrayıb. Sadəcə, siyasi partiyalar zəifləyib, vətəndaş cəmiyyəti institutlarında da bu zəiflik hiss olunur. Amma yenə də ölkədə güclü təşkilatlar var. Yeni quruma gəlincə, Azərbaycan cəmiyyətində elektoratın bir araya gəlməsi üçün ad məsələsi önəmli deyil".

**KXCP sədrinin müavini Xəzər Teyyub isə E.Quliyevin fikirlərini qismən bölüşdü. O, siyasi partiya yox, siyasi hərəkata ehtiyacın olduğunu vurğuladı:** "Demək olar ki, hər hansı siyasi hərəkat yoxdur, siyasi partiyalar konkret olaraq bu siyasi durğunluğa məhkum olub. Hər kəsin bir yerdə ola biləcəyi siyasi hərəkat formasında olan quruma ehtiyac var. Yəqin ki, bu, yaxın gələcəkdə baş verə bilər. Ölkənin gələcəyi naminə hamının bir yerdə olmağı vacibdir. Belə olsa, daha effektiv nəticə əldə edə bilərik. Eldəniz Quliyev də yəqin ki, bu məsələləri nəzərə alaraq o fikirləri söyləyib".


Eldəniz Quliyev

**ADP sədri Sərdar Cəlaloğlu ümumiyyətlə Azərbaycanda siyasi partiyaların durumunun heç də yaxşı olmadığını dedi:** "Azərbaycanda nəinki siyasi sistem, ümumiyyətlə, siyasi partiyalar böhran vəziyyətindədir. Tam fiaskoya uğramasa da, böhran vəziyyətindədir. Müasir dünyada inkişafın birinci əlaməti ölkənin çoxpartiyalı siyasi sistemdə olmasıdır. Fəlsəfə də müəyyən edib ki, inkişafın mənbəyi ziddiyyətlərdir. Reallıq budur ki, çoxpartiyalı siyasi sistem Azərbaycanda iflasa uğramayıb, amma çox ciddi tənəzzüldədir. Bu, təkcə müxalifət partiyalarına aid deyil. İqtidarda olan YAP-ın da əlində milyonlarla pul, hər şəhərdə, hər kənddə ofisi ola-ola heç bir fəaliyyət göstərə bilmir. Əgər bunun rəqibi yoxdursa, necə mübarizə aparacaq? Rəqibsiz necə mübarizə apara bilər? Biz indi pis-yaxşı hakimiyyətin nöqsanları ilə bağlı mübarizə aparırıq. Yeni Azərbaycan Partiyası isə mübarizə aparmır, əslində bu mənada YAP da çöküb".

**Yeni siyasi qurumla bağlı S.Cəlaloğlu dedi:** "Velosipedi ikinci dəfə kəşf etməyə ehtiyac yoxdur. Sadəcə velosipedi yaxşı sürməyi öyrənmək lazımdır". Eldəniz Quliyev siyasətin, sosiologiyanın, demokratiyanın, dünyadakı hadisələrin anlamının, qələbənin, məğlubiyyətin səbəbinin nə olduğunu bilməyə-bilməyə yeni bir təşkilat yaratmaq istəyir. Azərbaycanda qeydiyyatdan keçmiş 55 partiya var. Birini də Eldəniz Quliyev yaratsın, adını qoysun Həsənqulu. Nə olacaq? Hansı xalqla o yeni təşkilatla demokratiya gətirəcək? Bu xalq demokratiya istəyirsə, elə Əhməd Orucun da təşkilatından yapışıb demokratiya tapacaq, narahat olmayın".

❑ Nərgiz YAQUBLU



# İrticanın əyalət modeli

Azər RƏŞİDOĞLU

**Azərbaycanın əyalətlərində baş verən məmur özbaşınalıqları sanki gələcək inqilabın xəbərçiləridir. Paytaxtdan və iri şəhərlərdən fərqli olaraq əyalətlərdə baş verənlərin ancaq bir adı ola bilər - cəngəllik qanunları ilə idarə etmək cəhdləri.**

İstər yeli məmurlar, istərsə də paytaxtdakı daha iri çaplı hakimiyyət nümayəndələri əyalətlərə qul plantasiyaları kimi yanaşırlar. Əkin sahələri, bulaqlar, münbit torpaqlar hamısı məmurların şəxsi istifadəsindədir. Yerli əhali öz doğma yurdlarında bir qonaq kimi yaşamaq məcburiyyətindədir.

Bu da problemin sonu deyil. Yerli sakinlər ən kiçik problemlərini belə həll edə bilmirlər. Nə icra hakimiyyəti başçıları, nə onların kəndlərdəki nümayəndələri, nə də ki bələdiyyələr kiçik bir problemi də həll etmək istəmirlər. Bu barədə heç düşünmürlər də. Kiçik məmurun qarşısında yalnız bir məqsəd dayanır - özündən böyük məmurun xidmətində durmaq. Əhali, insanlar, doğulduğu, yaşadığı və öləndə dəfn olunacağı məkan onu düşündürmür.

Bakıda da məmur özbaşınalığının miqyası olduqca böyükdür. Lakin paytaxtda rayonlarda törədilən rəzaləti təkrarlamağa qorxurlar. Bakıda da yerli əhalini torpaqdan, çimərlikdən, dəniz nemətlərindən, hətta dənizə tamaşadan məhrum ediblər. Burada da əhalini sonuncu sort varlıq kimi dəyərləndirirlər. Lakin iri şəhərlər və paytaxtlarda mətbuatın mövcudluğu, ictimai institutların varlığı məmur tərbiyəsizliyinin qarşısını nisbətən alır.

Düzdür, Azərbaycan hakimiyyəti mətbuatdan, ictimai rəydən, beynəlxalq təzyiqlərdən qorxana bənzəmir. Lakin istənilən halda bu amil məmurların harınlığını müəyyən qədər buxovlaya bilir.

Azərbaycanın bölgələrində baş verən rəzalət "ərəb baharı" ərəfəsində Yaxın Şərq ölkələrinin ucqarlarında da baş verirdi. Orada da neft pullarından məst olan, pulun çoxluğundan ağlını itirmiş məmurlar yerli əhalini öz köləsi, hətta kölədən də aşağı hesab edirdilər.

Xarici amilləri də satın almaq gücündə idilər.

Bir sözlə, hər şey qaydasında gedirdi. Harın məmurlar hər şeyi dəqiq hesablamışdılar. Bircə məsələdən başqa - bu qədər nifrət etdikləri, insan yerinə qoymadıqları xalqın bir gün onların "hakimiyyət sarayını" başlarına uçura biləcəklərini hesablaya bilməmişdilər. Elə bu yanlışlıq onların sonunu yaxınlaşdırdı. Bir anın içində bu nökər xisləti məmurların qürurları ayaqlar altına salındı.

"Ərəb baharı" da sübuta yetirdi ki, xalqın qəzəbi qarşısında heç bir qüvvə duruş gətirə bilməz.

Bu gün Azərbaycanda da oxşar proseslər baş verir.

Məmurlar heç kimi saymır. Nə ictimai rəy, nə qanunlar, nə beynəlxalq öhdəliklər onların vecinə də deyil. Cəmiyyət diz çökdürülüb, kiçicik etiraz edənlər həbs edilir. Məmurlar düşünürlər ki, siyasi meydanda rəqib qalmayıb. Lakin Azərbaycan insanını bu dərəcədə təhqir edən məmurlar bir həqiqəti unudurlar. Azərbaycanda cərəyan edən proseslərdə bir baş qəhrəman var. Bu da xalqın özüdür. İnsanların yoxsulluq içində yaşadığı, səsinin eşidilmədiyi hər bir rayon və şəhər sabah bir barrikadaya çevrilə bilər. İsmayıllıda, Qubada insanlar özlərinin, ailələrinin namusunu qorumağı bacardılar. Belə hadisələr istənilən rayonda təkrarlana bilər.

Əslində əyalətlərdə baş verənlər onu sübuta yetirir ki, ölkədə böhran günü-gündən dərinləşir. Gərginlik artır. İnsanları təhqir edən məmurlar bunu anlamasalar belə, hər an sabitlik göyə sovrula bilər.

Proseslər elə bir mərhələyə qədəm basa bilər ki, bu dəfə narazılıq yaradan müxalifət partiyaları deyil, alçaldılan, təhqir olunan, mülklərindən məhrum olunan xalqın özü ola bilər. Proseslərin inkişafı belə bir ehtimal irəli sürməyə əsas verir ki, bütövlükdə Azərbaycanın rayonlarını üsyanlar bürüyə bilər. Üsyanı zorla yatırmaq cəhdləri isə alovlanan tonqalın üzərinə benzin səpələməyə bənzəyərdi.

Bu gün əyalətlərdə alçaldılan, təhqir olunan, haqqı əlindən alınan sadə xalqın özünün mübarizəyə qalxacağı da istisna deyil. Yaxın Şərqdə olduğu kimi son anda xalq özü təkbaşına mübarizəyə başlaya bilər.

Hər gün minlərlə insan səmimi şəkildə inancına, hüququna hörmət qoyulmasını tələb edir və barışmazlığa görə repressiyalarla üzləşir. Lakin artıq elə bir mərhələ başlayıb ki, təqiblərlə insanları mübarizədən döndərmək mümkün deyil.

Vəziyyəti yalnız xalqın özü dəyişə bilər. Öncələr də vurğulamışdıq ki, bölgələrin liderlərinin, o cümlədən Bakı kəndlərinin öz liderləri ilə meydanlara çıxması və onların torpağını, mülkünü, haqqını əlindən alanların dərsini verməsi bir anın içində reallaşa bilər. Xalq artıq belə yaşamaqdan bezib. Xalq dəyişiklik istəyir. Məmurların başı isə xalqı qarət etməyə qarışıb. Hər şey xalqın səbrinin nə zaman daşacağından asılı olacaq...

# İcra başçısı jurnalistdən əl çəkmir

**İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev gunxeber.com saytının baş redaktorunu növbəti dəfə xüsusi ittiham qaydasında məhkəməyə verdirib. Bu dəfə 17 aprel 2014-cü il tarixdə gunxeber.com-da İmişli təhsilindəki qanunsuzluqlarla bağlı dərc olunan yazını əsas gətirərək İmişli Rayon Təhsil Şöbəsinin müdiri Ramiz Əmirov baş redaktor barəsində xüsusi ittiham qaydasında iddia qaldırıb.**



Vilyam Hacıyev



Zabil Müqabiloğlu

Bu barədə Z.Müqabiloğluna Nərimanov Rayon Məhkəməsindən zəng edərək deyiblər. Məhkəməyə hazırlıq iclasının iyulun 16-na təyin olunduğu bildirilib.

Qeyd edək ki, bir müddət əvvəl İmişli Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Süleyman Bəşirov V.Hacıyevin göstərişi ilə Nərimanov Rayon Məhkəməsində Z.Müqabiloğlu barəsində xüsusi ittiham qaydasında iddia qaldırmışdı. Həmin iddiada əsas kimi götürülən məqalənin Nərimanov rayonuna heç bir aidiyyəti olmadığından, həmçinin Z.Müqabiloğlu bu rayonda yaşamadığından və işləmədiyindən, eləcə də iddia qüsurlu tərtib olunduğundan Nərimanov Rayon Məhkəməsi həmin iddianı icraata götürmədi.

Bundan sonra V.Hacıyev İmişli Rayon Təhsil Şöbəsinin müdirini işə salaraq ona baş redaktor barəsində xüsusi ittiham qaydasında iddia qaldırmağı tapşırıb. Bu dəfə də heç bir əsas olmadan iddia Nərimanov Rayon Məhkəməsinə təqdim olunub.

Z.Müqabiloğlunun sözlərinə görə, gunxeber.com saytında bu il aprelin 17-də İmişli Təhsil Şöbəsindəki qanunsuzluqlarla bağlı dərc olunan yazıdan sonra şöbə müdiri Ramiz Əmirov redaksiyaya məktub göndərib və onun mövqeyi saytda dərc olunub.



## Rauf Mirqədirov bu həftə dindirilə bilər

**Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında saxlanan jurnalist Rauf Mirqədirov bu həftənin son günləri dindirilə bilər. Bunu "Media forum" saytına iyulun 9-da vəkil Elmar Süleymanov deyib.**

Vəkil iddia edir ki, Rauf Mirqədirovun işi ilə bağlı hazırda heç bir istintaq hərəkəti aparılmır: "Əgər dindirilmə prosesi baş versə, uzun müddətdən sonra bu, istintaqın ilk hərəkəti olacaq. Rauf bəyin işi ilə bağlı başqa kimlərin dindirildiyi və ya dindiriləcəyi haqda isə bizə məlumat verilməyib".

Aprelin 19-da Rauf Mirqədirov yaşadığı Türkiyə paytaxtı Ankaradan deportasiya edilib. Həmin gün təyyarə ilə Bakıya göndərilən jurnalist MTN əməkdaşları tutub. O, 2008-ci ilin aprelindən etibarən Ermənistanın xüsusi xidmət orqanlarına işləmək motivi ilə dövlətə xəyanətdə ittiham olunur.

# İTV-yə qarşı məhkəmə iddiasının perspektivi varmı?

## Rövşən Hacıyev: "Lap Emin Hüseynovu İTV rəhbərliyinə qoysalar da, heç nə dəyişməyəcək"

**"Hazırkı durum onu göstərir ki, İctimai Televiziyada nəinki inkişaf, əksinə, geriləmələr var. Və mən hesab edirəm ki, buna səbəb İTV rəhbərliyinə gələn adamın İTV fəlsəfəsindən tamamilə uzaq olmasıdır. İkincisi də odur ki, bu adam çox asılı olduğu üçün istənilən halda sərbəst ictimai maraqlara xidmət edən televiziyanın fəaliyyətini qura bilmir. Fikrimcə, İTV-nin indiki baş direktoru Cəmil Quliyev "Mədəniyyət kanalı"nda qalıb öz işini davam etdirməliydi".**



Cəmil Quliyev

Bu sözləri aktual.az-a Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun (RATİ) direktoru, İctimai TV-nin baş direktorluğuna keçmiş namizəd Emin Hüseynov deyib.

**Emin Hüseynov** İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru vəzifəsinə keçirilən seçkilərin nəticələrinin ləğvi ilə bağlı məhkəməyə müraciətinə də toxunub:

"İş Ali Məhkəmədədir. Vəkilimiz vasitəsilə kasasiya şikayəti verilib, lakin məhkəmənin tarixi hələ də məlum deyil.

Qaldı məhkəmənin də mahiyyəti ondan ibarətdir ki, seçim ədalətsiz olub. Bu şəxs də həmin vəzifəyə seçilməyib. Müsabiqə zamanı isə mənə qarşı ayrı-seçkilik edilib. Bu, faktlarla təsdiq olunub və məhkəmə işində də ətraflı izah olunub. Təəssüflər olsun ki, bundan öncəki məhkəmə qərarlarında biz ədaləti görmədik və inanmıram ki, Ali Məhkəmədə də bizi böyük uğur gözləyir, amma işi Avropa Məhkəməsinə çatdıracağıq. Ən azından Cəmil Quliyev müsabiqədə ona verilmiş suallara passiv və dolğun olmayan cavablar verib. Elə bil o, İTV-nin yox, yeni mədəniyyət televiziyasının qurulmasında iştirak edəcək".

Maraqlıdır, İTV-yə qarşı hər hansı məhkəmə iddiasının perspektivi varmı? Təcrübə bu barədə nə deyir?

**Məlumdur ki, İTV-yə qarşı iddia qaldıranlardan biri də tanınmış jurnalist, "Azadlıq" qəzetinin keçmiş redaktoru Rövşən Hacıyev olub. "Yeni Müsavat"a açıqlamasında R.Hacıyev bildirdi ki, E.Hüseynovun iddiası tamamilə haqlıdır. Onun sözlərinə görə, İTV-yə sədr seçkiləri keçirilmədi, İsmayıl Ömərovdan sonra təyinat oldu. Müsahibimiz hesab edir ki, məhkəmə yolu ilə nəyəsə nail olmaq çətin məsələdir:** "Bu fikrim Avropa Məhkəməsi üçün də keçərlidir. Biz konkret İTV ilə bağlı kitabın yandırılması məsələsini Avropa Məhkəməsinə daşımışıq. Hələ ki bir nəticə yoxdur".

**Müsahibimiz hesab edir ki, köklü dəyişikliklər olmadan İTV sahəsində nəyəsə nail olmaq mümkün deyil:** "Lap İTV-nin rəhbərliyinə Emin Hüseynovun özünü də gətirsək, heç nə dəyişməyəcək. Bu, konkret fərdlərdən asılı olan məsələ deyil. Əgər televiziya icra hakimiyyətinin nəzarətindədirsə, onu kim dəyişdirə bilər? "Ağ atlı oğlan" da gəlsə, İTV-də müsbət heç nə edə bilməz".

**Bununla belə, R.Hacıyev hesab edir ki, İTV-yə qarşı məhkəmə iddiaları verilməli, presedent yaranmlıdır:** "Siz şahidsiz ki, İTV-nin yaranması istiqamətində xeyli işlər görüldü cəmiyyətdə. Müzakirələr, diksussiyalar oldu. Amma nəticə dəyişmədi. Bununla belə, nəyəsə nail olmaq üçün daim bu cür addımlar atılmalıdır".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014

# "Hafka"nın bankının qarşısında əlbəyaxa dava

## Fransa mətbuatından Azərbaycan informasiya məkanına qədər hər yerdə Hafiz Məmmədovdan yazırlar; 7 mobil telefon gəzdirən, 18 mühafizəçi saxlayan milyarder kimdir?

**... İndi hamı ondan - "Hafka" ləqəbli iş adamından danışır. Dillərdə dastan, mətbuatda beş ən çox diqqətdə saxlanan, Fransadan Azərbaycan mediasına qədər barəsində yazılan bir iş adamı - Hafiz Məmmədovdan söhbət gedir. Elə bir həftə yoxdur ki, xəbər portallarında, çap mediasında "Hafka" haqda yeni-yeni yazılar getməsin.**

İyulun 9-da da "Bank of Azerbaijan"ın qarşısında müştərilərlə bank işçiləri arasında əlbəyaxa dava olması barədə xəbər yayılıb.

Axar.az-a bu haqda müştərilər adından bankla problemi olan jurnalist Samir Feyruzov məlumat verib.

Məlumatda deyilir ki, "Bank of Azerbaijan" yenə də müştərilərinin pullarını qaytarmaq istəmir. Buna görə də iyulun 8-də "Bank of Azerbaijan"ın qarşısında əlbəyaxa dava baş verəndən sonra onlar kömək üçün Mərkəzi Banka gediblər: "Orda dava-dalaş oldu. Sonra camaata dedilər ki, gedin, kimə deyirsiz deyin! Mərkəzi Banka getdik, orda da qəbul etmədilər".

**"Hafiz Məmmədovun əlindən bankı almaq istəyirlər, o da vermir. Pulunu götürüb qaçıb. Bankda da pul yoxdur" deyə, Samir Feyruzov bildirib.**

**H.Məmmədov "Qafqazinfo"ya bir müddət əvvəl verdiyi müsahibəsində mütəmadi gündəmdə qalmasını belə şərh etmişdi:** "Yəqin qarşısını almırıq - ona görə... Yazırlar ki, oxunsunlar. Özüm də vaxtım oldu oxuyuram, olmadı oxumuram. Çünki adam özü bilməndə ki, xəbərlər neqativdir, onsuz da oxumur. Vaxt azlığından yaxşı şeyi də oxumuram, deyim ki, yaxşını oxuyuram - yox. Azərbaycana aid bir şey olanda ona baxıram. Maşallah, o qədər çox yazılıb ki... Həm pis, həm yaxşı. Heç baxmıram".

Göründüyü kimi, haqqında yazılanlar onu bir o qədər də narahat etmir. Yaxud da özünü belə göstərməyə çalışır. Hər halda, oxucu üçün "kimdir Hafka" sualı hələ açıq olaraq qalır. Çünki onu Azərbaycanın "Abramoviçi" də adlandırmaq olmaz. Bəs doğrudan da kimdir "Hafka"?



Hafiz Məmmədov

"Hafka" - Hafiz Məcid oğlu Məmmədov. 1964-cü il, dekabrın 2-də Naxçıvanda anadan olub. 1971-1981-ci illər Naxçıvanın 3 saylı orta məktəbində təhsil alıb. 1981-1985-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində ali təhsilini davam etdirib.

1985-ci ildən iaşə müəssisəsində mühasib kimi çalışıb. 1987-1988-ci illərdə Sənaye Nazirliyində iqtisadçı, sonra "Provident Bank Manacement" kredit departamentinin direktoru, "Sənan" kiçik müəssisəsinin baş meneceri, "Alpha plus" ticarət müəssisəsinin baş meneceri işləyib. Nəhayət, 1998-ci ildə "Baghlan General Trading" şirkətinin prezidenti olub. İndi onun gah həbs ediləcəyi, gah ölkədən qaçdığı, gah da müflis olduğu söylənir.

Fransa mediasının isə yazdığı ən qəribə xəbər budur ki, iş adamı üç dildə - Azərbaycan, rus və ingiliscə sərbəst danışır. Sən demə, o, evdən çıxanda özü ilə 7 mobil telefon götürür. Londonda və İsveçrədə ofisləri var. Həftənin cümə günləri onu tapmaq müşküldür.

Çünki həmin günü özünə və ailəsinə həsr edir. 7 mobil telefon gəzdirən, 18 mühafizəçinin müşayiəti ilə zirehli "Mercedes"də hərlənən Məmmədov istər ölkəsinin, istərsə də xarici KİV-də öz imicini müsbət çalarlarda göstərmək istəyir.

H.Məmmədov hələ 2004-cü ildə "Bakı" klubunu təsis edib. O, təkcə Fransa "Lans"ı ilə kifayətlənməyib, "Atletiko" və "Porto"da pay sahibi olmaq niyyətindədir.

Fransız KİV-in yazdığına görə, azərbaycanlı milyarderin "Lans" futbol klubunun prezidenti Jerve Martellə əvvəllər tanışlığı olmayıb. Məmmədovun bu klubla tanışlığı 2012-ci ildə Kannda olub. Məmmədov ora dincəlməyə gəlibmiş.

Onlar kazinoda tanış olublar. Yerli kazinodakı tanışlıq sonradan onların birgə əməkdaşlığına çevrilib. Elə oyun avtomatları arxasındaca "Lans" söhbəti edilib və H.Məmmədov kluba 20 milyon ayırmağa razılaşıb.

❑ **E.SALAMOĞLU**

# "QHT-lərin Həyəcan Şəbəkəsi" yaradıldı

## "Azərbaycanda müstəqil QHT-lərin fəaliyyətinə "rəsmi" son qoyuldu"

**Dünən Azərbaycanda müstəqil fəaliyyət göstərən bir qrup QHT Azərbaycanda QHT-lərin fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı müzakirə keçirərək qərar qəbul edib. Bu barədə hüquq müdafiəçisi Elçin Abdullayev məlumat verib. Məlumata görə, qərarda deyilir ki, artıq QHT-lərlə bağlı qanunvericiliyə edilən dəyişikliklərin onların fəaliyyətinə ciddi şəkildə məhdudiyyətlər yaratması təcrübədə özünü göstərir.**




QHT-lərin təkrar qeydiyyat problemləri, dövlət reyestrindən yeni çıxarışların alınması, qrant müqavilələrinin qeydə alınmaması, QHT-lərin bank hesablarının dondurulması, QHT rəhbərlərinin şəxsi hesablarına məhkəmə qərarları ilə həbs qoyulması halları sürətlə çoxalmaqdadır. Bu günə qədər ölkədə 20-dən artıq müstəqil fəaliyyət göstərən QHT-yə qarşı sanksiyalar tətbiq olunub. Onların icra etdikləri layihələrin icrası dayandırılıb: "Yuxarıda göstərilən bütün faktları təsdiq edən rəsmi sənədlər də mövcuddur. Müzakirələr zamanı mövcud fövqəladə vəziyyətdən çıxmaq üçün Müstəqil QHT-lərdən ibarət "QHT-lərin Həyəcan Şəbəkəsi" yaradılıb".

"QHT-lərin Həyəcan Şəbəkəsi" ilkin olaraq aşağıdakı məsələlərin həlli üçün çalışmağı qərarlaşdırıb: **1)** Azərbaycan Respublikasının Prezidenti ilə vətəndaş cəmiyyəti institutlarının görüşünün təşkili üçün müraciət edilməsi; **2)** Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası qarşısında həyəcanlı vəziyyətin aradan qaldırılması üçün səylərin artırılmasına dair təşəbbüslə çıxış edilməsi; **3)** Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirlikləri ilə birbaşa görüşlərin keçirilməsi və vəziyyətin müzakirəsi; **4)** Mövcud vəziyyətə dair dəyərləndirmə sənədinin hazırlanması və onun (dövlət strukturlarına, səfirliklərə və beynəlxalq təşkilatlara) təqdim edilməsi; **5)** Böyük dövlətlərin başçılarına və beynəlxalq təşkilatların rəhbərlərinə müraciətlərin edilməsi; **6)** Ədliyyə Nazirliyi, Prezident Adminstrasiyası və Milli Bankın inzibati binaları qarşısında piket keçirilməsi üçün rəsmi müraciətin edilməsi; **7)** QHT-lərin fəaliyyətlərini məhdudlaşdıran qanun pozuntusu hallarına qarşı məhkəmələrdə iddiaların qaldırılması (*Ədliyyə Nazirliyi və Banklara qarşı*); **8)** Həbs olunan Vətəndaş cəmiyyətinin nümayəndələrinin azadlığa buraxılması istiqamətində tədbirlərin davam etdirilməsi.

❑ **E.SEYİDAĞA**

# "Eta dux mujiski, jeniski?"



**Aygün MURADXANLI**

**Azərbaycan məmurlarının xarici səfərlərdəki sərgüzəştləri ilə bağlı yəqin çox oxumusuz. Bilirəm, şaqqanaq çəkib güldüyünüz də olub, elementar qaydalardan xəbərsiz insanları məmurluğa gətirib, dövlət büdcəsi hesabına xarici səfərlərə göndərənlərin ünvanına "güllü-çiçəkli təriflər" dediyiniz də, hətta onların yerinə utandığınız da.**

Bu yaxınlarda belə sərgüzəştlərdən birinə şahidlik etdim. İnanın, gözlərimin qarşısında baş verən o biabırçı olaydan sonra hisslərim də qarışıq düşüb. Bilmirəm güləm, yoxsa halımıza ürək dolusu bir hönkürtü vuram.

Parisin Şarl de Qoll hava limanının "Duty Free"sində dolaşırdım. Bir də gördüm, Azərbaycan məmurlarından biri əlinə çəhrayı rəngli ətir qutusunu az qala satıcı qızın gözünə soxa-soxa yüksək səslə soruşur: "Eta dux mujiski, jeniski?" Zərif, kipriklərini ən yeni kosmetoloji nailiyyətlə ikiqat uzatmış fransız xanım da gözlərini döyür, bu yekəpər, hətta zırpı kişinin ondan nə istədiyini anlaya bilmirdi. Satıcı 2 dəfə ingiliscə "sizə necə kömək edə bilərəm" soruşsa da zırpı məmur onu anlamadı, eyni sualı dönə-dönə təkrar etməyə başladı: "Eta dux, mujiski, jeniski?" Hər dəfə sualı təkrar edəndə səsini bir az da qaldırır, gözlərini bərəldir, satıcı qız onun hər bağırtısından sonra sanki biz az da balacalaşır, necə deyərlər, yerə girirdi. Bəlkə də orada rusca danışa bilən satıcı var idi. Ancaq kimin ağlına gələr ki, "eta dux mijiski, jeniski" ruscadı?

Əslində bu olaya yerə girməli bir adam var idisə, o da Azərbaycan məmuru idi. Həftə səkkiz, o doqquz xarici səfərə çıxsa da, çoxdan beynəlxalq ünsiyyət dilinə çevrilən ingiliscədə sərbəst danışmaq, polemikalara qoşulmaq demirəm, heç olmasa çulunu sudan çıxarmaq üçün iki kəlməni bir-birinin arxasına qoşa bilməyən, elementar vərdişləri olmayan məmurların çöldə-bayırda nə işi var? Allah bilir, bu olay hər gün Avropanın neçə paytaxtında müxtəlif variantlarda baş verir.

Olayın arxasını da deyim, gülə bilsəz, gülün. Satıcı çıxış yolunu digər işçiləri köməyə çağırmaqda gördü. Amma onlar da zırpı, yekəqarın, burnu və qulaqları tüklü canlının dilindən bir şey anlamadı. Sonda milli məmur ağ ciyərlərinin dərin guşəsindən bir "eh" çıxarıb əli ilə havanı elə bərkdən yardı ki, dedim indi kəpənək kimi zərif qızlar domino daşı kimi bir-birinin ardınca yerə səriləcək.

Yox, elə bilməyin əlindəki qutu çəhrayı olsa da "dux"un hansı cins üçün olduğunu dəqiqləşdirə bilməyən məmur onu almaqdan vaz keçdi. Kolxoz sədrlərinə xas iri addımlarla ləngər vura-vura kassanın yanına gəlib iki zənbil götürdü, rəflərdə gözünə nə xoş gəldisə zənbillərə doldurmağa başladı. Həm də ən irilərini, ən bahalılarını. Parisə yolu düşənlər bilir, Fransada ətirlər həddən artıq bahadır. Hətta vergidən azad "Duty Free"də belə. Kassada 3 min avroya yaxın ödəniş edən məmur əlindəki saysız paketlərlə dükandan çıxdı. Üzündəki yekəxana ifadə ilə uçaq qapısına gedərkən gözü "əsalətli" fransız pendirləri, bahalı Burbon şərabları satılan mağazaya sataşdı. Qəfildən elə bil adama "hücum" əmri verdilər...

Artıq məmuru o ərzaq mağazasında müşahidə eləməyə hövsələm çatmadı. Vaxtım da yox idi. "Sale" yazılan bölümdə cibimi silib-süpürən vəhşi kapitalizmdən qoruduğum qəpik-quruşu düz-qoş edib anama ətir tapmalıydım...

Yeyirsiz, dağıdırsız, talayırsız, vətəndaşın "burnunuzdan gəlsin" bədduasına məhəl qoymursuz, heç olmasa, o puldan ingilis dili müəllimlərinə də verin ki, "bayıra" çıxanda biabır olmayasız. Rəhmətlik Üzeyir bəyin "Ordan-burdan"ındakı ürəyindən Duma deputatlığı keçən Salman bəy yadıma düşdü. Amma o da bugünün məmurundan abırlı idi. Heç olmasa, deputatlıq üçün çalışırdı, indiki dillə desək, stilisti var idi, rusca, bal rəqsləri müəllimləri tutmuşdu. Ən əsası da büdcəni talamırdı. Azərbaycan məmuru yüz ildi adam olmaq istəmir... Elə düşüblər "duptatlığ, duptatlığ"ın dalınca...

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014



# 12 illik arzunun çin olduğu gün

Samir SARI

**Bilirəm, Braziliya yığmasının ölkəmizdəki fanatlarının xoşuna gəlməyəcək, amma bu komandanın darmadağınla uduzması mənim 12 illik arzum idi. Köhnə və sadiq oxucularım 2002-ci il mundialında yazdığım "Qıvraldo" başlıqlı yazını xatırlayarlar - bu arzu o günlərdə doğmuşdu.**

Gənc nəsil üçün bir daha xatırladım ki, o mundialda koreyalı hakim Braziliya ilə oynayan Türkiyə millisinin qapısına çox havayı bir penalti təyin etmişdi. Qayda pozuntusu cərimə meydançasından iki-üç metr qıraqda olsa da, hakim penalti nöqtəsini göstərdi və braziliyalı oyunçu havayı qolu vuraraq yaquar öldürmüş gənc hindu kimi havaya sıçrayıb nərildədi. Nə olub, ə?

Bundan sonra Hakan Ünsal topu zərblə oyunun vaxtını öldürməkdə olan Rivaldoya tərəf vurdu, top Rivaldonun dizinə dəydi, o isə üzünü tutub kobra vurmuş hindli kimi acılar içində qıvrıldı və "ədalət mücəssəməsi" hakim Hakana qırmızı kart göstərib oyundan qovdu. Həmin kadrı hələ də göstərirlər - həyasız simulyasiya örnəyi kimi.

Bax, o zaman futbol azarkeşi olaraq məndə belə bir arzu oyandı ki, ay, nə ola, gün gələ, Braziliyanın böyük hesabla məğlubiyyətini görəm, onların pərt olmalarına, yerə yıxılıb üzülmələrinə baxam.

Bu gün o gündür. Arzum çin çıxdı. Yəqin ki, elə bu çempionatın ilk oyununda Braziliya Xorvatiyanı nahaq penalti hesabına udaraq yerə-göyə sığmayan sevinc təzahüratı yapanda da bənzər arzuya düşənlər çox olmuşdu. Nəhayət, hamı o günü - buynuzsuz qoçun qisasının buynuzluda qalmadığı anı gördülər. Alma xorvatın ahını, çıxar ahəstə-ahəstə.

Beləcə, göbəyiaçıq braziliyalı qızlar komandalarının qələbəsindən sonra ortalığa düşüb əndam titrədə, qara gədələr sambaçılıq edə, "biz yekik", "hamıdan böyük Braziliya, başqa böyük yox" çığırtıları ilə Rioda növbədənkənar karnaval düzəldə bilmədilər. Ləzzət elədi. Amma yazar tayfası bir az ürəyiyuxa olur, düzü, dördüncü qoldan sonra əlində plastik kola parçı tutmuş uşağın üzünü stəkanla tutaraq hıçqırması ürəyimi sızlatdı. Gərək pentakampeonlar o uşağı ağlatmayaydılar, uduzursan, 0:2, cəhənnəm-gor, 0:3 hesabıyla uduz, ta 7:1 nəydi?

Yazıq braziliyalılar lap əvvəlcədən deyirdilər ki, bizə mundial lazım deyil, "haramıza yaraşır" deyirdilər. "İşsizlərimiz, aclarımız var, ölkə pis gündədir, milyardları futbola xərcləyincə sosial layihələrə yönəldək, adam kimi yaşayaq" deyə mitinq, yürüş keçirir, polislə dalaşırdılar. Brailiyanın FFA-sı isə deyirdi, yox, tarix yazacağıq. Al, bu da sənə tarix. Hələ tarixdə (yəni mundialllar tarixində) belə biabırçılıq olmayıb. Braziliya millisini, bişəkk, o yalavac əhalinin ah-naləsi tutdu. Yoxsa olacaq iş deyildi.

Zarafat-zarafat, Braziliyanın futbol sektorunda yarım əsrdən bəri davam edən hökmranlığı öz evində bir anın içindəcə dağılıb getdi.

Bu hökmranlıqla yanaşı nə qədər miflər dağıldı, klişe ifadələr puç oldu. Braziliyalı oyunçular, guya hər zaman belə deyirlər: "Rəqiblərimiz bizə bacardıqları qədər qol vurur, biz - istədiyimiz qədər". Almanlar bu söhbətin belini birdəfəlik qırdı, Braziliyanın qapısına ürəkləri istəyən qədər qol vurdular. Hətta oyunun ikinci hissəsində almanların necə böyük bir ürəyə sahib olduqları üzə çıxdı, onlar istəsəydilər və bir az artıq səy göstərsəydilər, daha beş qol da ikinci hissədə vura bilərdilər. Nəyə görəsə qıymadılar, tamam məhv etmədilər.

"Skolari əjdaha məşqçidir" mifi də dağıldı. Adam 12 il öncəki haqq-nahaq qazandığı uğurun içinə beş qat artıq zibil qoydu, gedib durdu İspaniyanı pis günə qoyan, Kasilyası iməklədən del Boskenin yanında.

Braziliya azarkeşlərinin bugünkü halına baxırsan, yazığın gəlir, amma siz onları oyundan qabaq görəydiniz. Ortalıqda şəkillər var. Biri Klozeni ələ salırdı, biri baş məşqçi Yoahim Lövün şəklinin başını kəsib qoltuğuna vurmuşdu, biri "Almaniya, rədd ol evinə" şüarı qaldırmışdı və s. Harda qaldı bəs qonaqpərvərlik? Yaraşdımı indi? Qonaq uşaqların yanında səni o vəziyyətə saldı...

Gün o gün olsun ki, simulyasiya, saxtakarlıq, hiylə, zorbalıq hesabına qələbə qazanan başqalarının da bu cür darmadağınlı məğlubiyyət gününü görək. Onda həyat daha maraqlı olur.

# "Hakimiyyətin devrilməsi məsələsi sadəcə cəfəngiyyatdır"

## Aleks Qriqoryevs: "Bu pulların nəyə xərcləndiyini yoxlamaq da asandır"

**ABŞ-ın Milli Demokratiya İnstitutunun (MDİ) Bakı ofisinə rəhbərlik etmiş Aleks Qriqoryevs "Turan" agentliyinə müsahibə verib.**

***- Son il yarım ərzində Azərbaycan hakimiyyəti dəfələrlə MDİ-nin və şəxsən sizin ünvanınıza ciddi ittihamlar səsləndirib. Sizin gənclər təşkilatlarını facebook inqilabı törətmək məqsədilə qanunsuz maliyyələşdirdiyiniz iddia olunub. Sübut kimi mətbuatda hesabdan böyük məbləğdə nağd pul çəkdiyinizi təsdiq edən bank sənədlərinin surətləri dərc edilib. Bütün bunlarla bağlı nə deyə bilərsiniz?***

- Demokratiyaya gedən yol təhsildən və ən aşağı səviyyədə ictimai fəaliyyət mədəniyyətindən başlayır. Bu fəaliyyətin təlimi də rəhbərlik etdiyim MDİ-nin işinin əsas mahiyyətini təşkil edirdi. Gənc fəallar əlavə olaraq kimsəsiz uşaqlara dərs verməklə məşğul olurdular, zibil təmizləyirdillər, ağaclar əkirdilər, parkları abadlaşdırırdılar, kəndlərə işıq və su çəkirdilər. Həm də onlar bütün bunları bizim öyrətdiyimiz kimi, yerli hakimiyyətlə sıx əməkdaşlıq şəklində edirdilər. Maliyyə dəstəyi verdiyimiz layihələr də belə idi, seçkilərin müşahidəsi istisna olmaqla.



Aleks Qriqoryevs

Təəssüf ki, son dövrlərə qədər Azərbaycan MDİ-ni qeydiyyata almaqdan imtina edirdi. Buna görə bizim korporativ hesabımız yox idi və MDİ Azərbaycanda fəaliyyət göstərdiyi on beş il ərzində ofis direktorunun şəxsi hesabı vasitəsilə maliyyələşdirilirdi. Yəni mənim şəxsi hesabım əslində MDİ ofisinin hesabı idi.

Bu pulların nəyə xərcləndiyini yoxlamaq da asandır: Bakının mərkəzində ofisin saxlanması, əməkdaşların qonorarları, təlim tədbirlərinin - seminarların və konfransların keçirilməsi. Seminarlar zamanı MDİ təkcə zalın kirayə haqqını deyil, iştirakçıların bütün xərclərini - məşğələlərin keçirildiyi yerə gəlməsini, qidalanmasını və yaşayış xərclərini də ödəyirdi. Bakı ucuz şəhər deyil. Bir seminar hoteldən asılı olaraq iyirmi min dollara qədər başa gələ bilərdi.

İndiyədək düşünürəm ki, MDİ-yə hücumlar Azərbaycanın hakimiyyət dairələrində gizli mübarizənin nəticəsi, bir növ sınaq oldu - amerikalılara hücum etmək olarmı? Nəticələr çox ciddi olsaydı, asanlıqla geriyə addım atmaq olardı: biz ABŞ-a deyil, Qriqoryevsə hücum edirik! O isə ümumiyyətlə amerikalı deyil. Belə şeylər olur.

***- Son dövrlərdə Azərbaycan hakimiyyəti dəfələrlə bildirib ki, MDİ və digər Qərb institutları Azərbaycanda hakimiyyəti devirmək məqsədi güdür. Bundan yerli vətəndaş cəmiyyəti ilə birlikdə Qərb donorlarının fəaliyyətini dayandırmaq üçün istifadə olunub. Hakimiyyətin bu siyasətini necə qiymətləndirirsiniz və o, nəyə gətirib çıxara bilər?***

- Hakimiyyətin devrilməsi məsələsi sadəcə cəfəngiyyatdır. Çox güman ki, prezidenti Rusiya xüsusi xidmətləri və onların casusları qorxudur. Bu siyasət yaxşı heç nəyə gətirib çıxarmayacaq. Hakimiyyət başa düşmür ki, vətəndaş cəmiyyətini boğaraq Azərbaycanın gələcəyi ilə bağlı danışıqlar üzrə tərəfdaşdan məhrum olur, Qərblə mübahisə edərək isə gec, ya tez müttəfiqlərdən məhrum olacaq.

# Rəsul Quliyevin Gülənlə işbirliyi xəbəri yayıldı

## "Güman ki, camaatla Amerikada tanış olub"

**Rəsul Quliyev Amerikada Fətullah Gülənlə mütəmadi olaraq görüşür. Bu barədə R. Quliyevin adının açıqlanmasını istəməyən keçmiş silahdaşı publika.az-a məlumat verib. Məlumata görə, sabiq spiker Pensilvaniya ştatında səfərlərdə olur və zaman-zaman Gülənlə görüşlər keçirir. F. Gülənin onun Amerika həyatına da köməkliyi dəydiyi deyilir.**



Rəsul Quliyev



Fətullah Gülən

Qeyd edək ki, R. Quliyevin bir müddət öncə Azərbaycan mediasına F. Güləni müsəlman dünyasının 5 şəxsiyyətindən biri adlandırması, onun siyasi rəqibinə çevrilmiş Ərdoğanı isə sərt tənqid etməsi bu informasiya fonunda diqqəti çəkir.

"Fətullah Gülən Türkiyəni işığa, Ərdoğan isə qaranlığa sürükləmək istəyir" deyə, eks-spiker camaat liderini belə təqdim edir. Nur camaatının Azərbaycanda fəaliyyətə başladığı 90-cı illərdə R. Quliyevin yüksək vəzifədə təmsil olunması diqqətdən yayınmır və camaatın Azərbaycanda genişlənməsi üçün eks-spikerin yardımının toxunduğu qənaətini yaradır.

**Lakin R. Quliyevin spiker olduğu dövrdə dövlət müşaviri işləmiş Qabil Hüseynli açıqlamasında buna az inandığını deyib:** "Nurçular Azərbaycana 90-cı illərin əvvəlində gəlib. Lakin Rəsul Quliyevin onlar haqda təsəvvürünün belə olması sual altındadır. Buna görə onların Azərbaycandakı fəaliyyətində Rəsul Quliyevin də köməklik göstərdiyini demək inandırıcı deyil. Güman ki, R. Quliyev bu camaatla Amerikada tanış olub. Ehtimal etmək mümkündür ki, Fətullah Gülənlə müəyyən yaxınlığı olsun".



Qurban Məmmədov

# Cəza dəyişmədi: Qurban Məmmədov həbsdə qaldı

**İyulun 9-da Bakı Apelyasiya Məhkəməsi Milli Şuranın üzvü, hüquqşünas Qurban Məmmədovun şikayəti üzrə prosesi başa çatdırıb. Nəsimi Rayon Məhkəməsinin hökmü qüvvədə qalıb.**

Apelyasiya şikayəti Qurban Məmmədovun 3 il müddətinə azadlıqdan məhrum edilməsinə dair hökmdən verilmişdi. Hökmü Nəsimi Rayon Məhkəməsi 2013-cu il dekabrın 6-da çıxarıb. O, yol hərəkəti qaydalarını pozma və ifadə verməkdən boyun qaçırmağa məcbur etmədə təqsirli bilinib. Müdafiə tərəfi Qurban Məmmədova bəraət istəyirdi.

**Vəkil Fəxrəddin Mehdiyev "mediaforum" saytına deyib ki, bütün səylərinə baxmayaraq şikayət təmin olunmayıb:** "Məhkəmənin qərarı gözlənilən idi. İrəli sürdüyümüz vəsatətlərin heç biri nəzərə alınmamışdı".

55 yaşlı Qurban Məmmədov Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirib. AXC-də və ADP-də siyasi fəaliyyət göstərib, bir neçə dəfə həbs olunub. 1995-ci ildən vəkillik edib. O, ötən ilin iyun ayında tutulub.

Qurban Məmmədov ərizə ilə müraciət edərək məhkəməyə gəlmək istəmədiyini və işə onun iştirakı olmadan baxılmasını istəsə də, bu gün hakimin göstərişi ilə məhkəməyə gətirilib.

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014



# Həbsdəki vitse-admiral vətənə xəyanətdə ittiham olundu

## Şahin Sultanovun tutdurduğu hüquq müdafiəçisi sensasion faktlar açıqlayır

**Hüquq müdafiəçisi Bəxtiyar Məmmədov Hərbi Dəniz Qüvvələrinin(HDQ) vitse-admiralı, hazırda həbsdə olan Şahin Sultanov haqda daha bir ifşaedici məlumat açıqlayıb. Vaxtilə ərizəsi əsasında həbsdə yatan B.Məmmədov vitse-admiralın dövlətə xəyanətdə ittiham olunduğunu söyləyib. B.Məmmədov deyib: "Şahin Sultanov Xəzər dənizinin Azərbaycan sektorundakı bütün strateji obyektlərin xəritəsini xarici dövlətlərə satıb.**

Şahin Sultanovun vəkili Adəm Məmmədov ardıcıl olaraq bir neçə dəfə müvəkkilinin ölkə başçısına sensasion müraciət təqdim edəcəyini bildirir. Lakin hər bir müraciətində də ictimaiyyəti çaşdırmaq məqsədi güdür. Yalan fikirlərini reallaşdırmaq üçün az qalır ki, xalqın gözündə Şahin Sultanovu qəhrəman kimi tanıtsın. Başa düşmür ki, Şahin Sultanov dövlət əmlakını mənimsəmək məqsədilə həm vicdanını, həm də bir vətəndaş borcunu, eləcə də zabit şərəfini satmış bir insandır. Adəm Məmmədov bir vəkil olaraq qanuna müvafiq olaraq həbsdə olan Şahin Sultanovun müdafiəsini qurmaq əvəzinə mətbuatda anonslar verməklə, hansısa protokolun düz tərtib olunmamasından hay-haray salmaqla məşğuldur. O, istintaq sirrinin yayılması ilə məşğuldur. Əgər onda həqiqətən istintaqın gedişatında aşkarlanmış hər hansı nöqsanlar varsa, məhkəməyə təqdim etsin.

Apardığım araşdırmalar nəticəsində məlum olub ki, Şahin Sultanovun oğurladığı və təşkilatçılıq etdiyi mafiya vasitəsilə dövlətin bir milyarddan çox əmlakı tar-mar edilib. Təkcə Hərbi Gəmilərin Təmiri Zavodunun direktoru Əsəd Muradxanovla əlbirliyi sayəsində yüz milyon manat mənimsənilib. Belə ki, müxtəlif şirkətlərə məxsus gəmilərin "Texmarin" şirkəti ilə müqaviləsi olsa da, həmin gəmilər Hərbi Gəmilərin Təmiri Zavodunda çox ucuz başa gələn variantla təmir olunub və adıçəkilən maxinasiyadan külli miqdarda büdcə pulu ələ keçirilib.

Şahin Sultanovun Saray qəsəbəsində "kod 555" ləqəbli fırıldaqçı dostu, hazırda həbsdə olan Elxan Hacıyevlə və zavod direktoru Ə.Muradxanovla birlikdə hektarlarla torpaq sahələri var. Həmin torpaq sahələrində HDQ-nin Gəmiqayırma Zavodunda istehsal olmuş sayı-hesabı bilinməyən avadanlıqlar və 20 tonluq su çənləri, eləcə də ferma adlanan dəmir tikinti konstruksiyaları toplanıb. Bu da onu deməyə əsas verir ki, ortaq olan dostlar istehsalat müəssisəsi tikmək istəyiblər. Lakin həbs olunduqlarına görə müəssisəni tikib istifadəyə verə bilməyiblər. Şahin Sultanov zavod direktoru Ə.Muradxanovun və HDQ-nin sabiq qərargah rəisi, hazırda həbsdə olan Yunis Məmmədovla oğurladıqları pullarla Quba rayonunun Paşaoba kəndində hektarlarla gilas və alma bağları salıblar. Həmin kənddə hər biri qiyməti 100 min manatla ölçülən villalar tikdiriblər. Həmin villaların tikintisində də əsgərlərin, matrosların və digər işçilərin əməyindən istifadə edilib. Hər 3 villanın bütün dəmir konstruksiyaları isə HDQ-nin Gəmiqayırma Zavodunda yığılıb, hazırlanmış və dövlət büdcəsindən oğurlanmış materialları ilə tikilib. Həmin ərazinin yanından keçən yol boyu isə sabiq qərargah rəisi Y.Məmmədovun qohumlarının adına çoxsaylı fəaliyyət göstərən obyektlər mövcuddur. Dövlətdən oğurlanmış pullar hesabına Şahin Sultanov Elxan Hacıyevlə Şəki şəhərində Güzdük deyilən ərazidə sayı 400-ə yaxın olan iribuynuzlu mal-qara ferması da alıb və hazırda ferma fəaliyyət göstərir.

Şahin Sultanovun xeyir-duası ilə adyutant kimi qeyri-qanuni xidmətə cəlb etdiyi baş miçman Seymur Əliyev isə saxta MMC-lər vasitəsilə guya ki, HDQ-nin inzibati binalarında istifadə olunan iş otaqları üçün əşyaların alınması və silinməsi prosesini həyata keçirmək adı altında 100 min manatla əmlakı əlbir olub mənimsəyiblər.

HDQ baza komandiri olmuş və hazırda həbsdə olan Seyfi Hüseynov, Ə.Muradxanov və digər şəxslər dövlətdən oğurladıqları pullar hesabına o qədər harınlayıb ki, gözləri ayaqlarının altını belə görməyib. Günlərini əyyaşlıq, əxlaqsızlıq üzərində qurublar".

B.Məmmədov deyir ki, Ş.Sultanov Ə.Muradxanovla dövlət əmlakını mənimsəmək məqsədilə əvvəlcədən planlı hərəkət ediblər: "Belə ki, zavodun 20-yə yaxın vakant vəzifələrinə Ə.Muradxanovla Ş.Sultanovun yaxınları və qohumlarını təyin etməklə, sonda isə dövlət əmlakını bu vasitə ilə milyon manatlarla mənimsəyiblər.

Şahin Sultanov çirkin yollarla oğurladığı pullarla Avropa ölkələrində, Türkiyədə, Krımda, Krasnodar vilayətində villalar və obyektlər alıb, Moskva şəhərində isə marketi və şərikli bankı var. Bu qədər dövlət əmlakını zəbt edən, mənimsəyən, çirkin yollarla sərvət sahibi olan Şahin Sultanov Xəzər dənizindəki bütün strateji obyektlərin xəritəsini xarici dövlətlərə satıb. Eləcə də Bakı-Ceyhan neft-ixrac boru kəmərinin dəniz hissəsinin tam mühafizəsini təşkil etməmiş və praktiki həyata keçirməyib. Elə bu səbəbdən də mühafizə adı ilə xidmət aparan gəmilərin adlarını xidməti siyahılara salmaq yolu ilə min tonlarla yanacaq, sürtkü yağlarını silib milyon manatlarla dövlət əmlakını mənimsəyib.

Onun cinayət əməlləri birbaşa vətənə xəyanət olduğundan, bu cinayət əməllərindən xəbərdar olan hər bir şəxs cinayət məsuliyyətinə cəlb olunmalı, ciddi cəzalandırılmalıdır".

B.Məmmədov prokurorluq orqanlarından ictimailəşdirdiyi məlumatların, faktların yoxlanılmasını və müvafiq ölçü götürülməsini istəyir.

**Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

**❑ E.MƏMMƏDƏLİYEV**

# Yollara səpələnən milyardlar və nazirin "Qranat Holdinq"i...

## Dövlət büdcəsindən ayrılan pulların havaya sovrulması nəticəsində Ziya Məmmədovun ailə üzvlərinə məxsus "Qranat Holdinq", Cavid Qurbanova məxsus restoran və şadlıq evləri şəbəkəsi yaranıb, saysız-hesabsız villalar tikilib

**Son 10 ildə Azərbaycanda nəqliyyat infrastrukturuna 20 milyard dollar sərmayə qoyulub. Bu müddətdə ölkədə 9 mindən artıq avtomobil yolu qurulub və yenidən bərpa olunub. Nəqliyyat Nazirliyinin rəsmi məlumatında belə deyilir. Təbii ki, 20 milyard dollar balaca məbləğ deyil və bu pula ümumi uzunluğu 18 min 800 kilometr olan avtomobil yollarını Avropa standartlarına uyğun yenidən qurmaq olardı. Ancaq yolların heç yarısı da yenidən qurulmayıb. Təmir edilən və yeni salınan yolların keyfiyyəti də Avropa standartlarından xeyli uzaqdır - mütəmadi olaraq yolların çökməsi, çat verməsi barədə mediada məlumatlar dərc edilir. Yolların təmir tikintisinə xərclənən pullar bəzən fantastik həddə qədər şişirdilir.**



Məsələnin başqa bir mənfi cəhəti budur ki, neft pulları azalmağa doğru gedir. Vəsaitlərdən səmərəsiz istifadə Azərbaycan üçün çox ciddi problemlər yaradır. Bunun da məsuliyyəti yol siyasətinə məsul olan nəqliyyat naziri Ziya Məmmədov və "Azəryolservis" ASC-nin sədri Cavid Qurbanovun üzərinə düşür. Mediada yol korrupsiyası ilə bağlı yazılar çoxaldıqca, bu iki şəxsin şəxsi biznesləri də çiçəklənməkdə davam edir.

**Təbii sual ortaya çıxır - son 10 ildə 20 milyarda nələr etmək olardı? Bir qədər öncə, nəqliyyat naziri Ziya Məmmədov mediaya açıqlamasında Azərbaycanda yolların baha qiymətə tikilməsini öz aləmində təkzib etməyə çalışmışdı:** "Bəzən mediada belə fikirlər səsləndirilir ki, Azərbaycanda yolların tikintisi baha başa gəlir. Guya Azərbaycanda yollar dünyada ən baha başa gələn yollardandır. Əslində bu belə deyil. Reallıqda ən ucuz yollar Azərbaycanda tikilir".

**Nazirin arqumentinə görə, qiymətlərin artması yol layihələri çərçivəsində həddindən artıq köçürmələrlə bağlıdır:** "Yolların çəkilməsi üçün fərdi evlər, digər obyektlər, kommunikasiya xətləri köçürülür. Bunların da hamısı nəqliyyat layihəsinə daxil olduğu üçün bəzən ilk baxışda qiymət yüksək görünür. Ancaq araşdırdıqda görürsən ki, ümumilikdə sərf edilən vəsaitin daxilində yolun qiyməti çox münasib və ədalətli bir şəkildə öz təsvirini tapıb".

Ölkələrdə yolların bir çoxunun tikinti və bərpasına kredit ayıran Dünya Bankı yol layihələrinin xərcləri ilə bağlı hesablama aparıb. Bankın 40-a yaxın ölkədə kredit ayırdığı layihələrin müqayisəli analizini əks etdirən bu sənədə görə, təzə yolun salınması xərclərinin ən ucuzu hər kilometr üçün 142 min dollara, ən bahalısı isə kilometrinə 1 milyon 832 min dollara başa gəlib. Bu qiymətlər ümumiyyətlə yol olmayan ərazilərdə aparılan yol tikintilərinə aiddir. Yəni söhbət sıfır variantından yolun salınmasından gedir. Artıq mövcud olan yolların bərpasına isə hər kilometrinə 62 min dollardan 609 min dollara qədər pul xərclənə bilər. Bu xərclər yol ötürücülərinin və qovşaqların tikintisini də əhatə edir.

Rəqəmlər arasında olan fərq yolun keyfiyyəti, ərazinin landşaftı, işçi qüvvəsinin, tikinti materiallarının ölkədən-ölkəyə fərqli qiyməti ilə izah olunur. Azərbaycanın da daxil olduğu beynəlxalq İpək Yolu layihəsinin bir hissəsini çəkən Qazaxıstanda yol tikintisinə sərf edilən vəsait Azərbaycandakı yol tikintisi məsrəfləri ilə müqayisədə çox azdır. Qazaxıstan nəqliyyatçıları Çinə qədər uzanacaq 2500 kilometrlik birinci dərəcəli yolun çəkilməsi üçün 4 milyard dollarlıq büdcə tərtib ediblər. Başqa sözlə, hər kilometrə 1,7 milyon dollar xərc nəzərdə tutulub. Yolların keyfiyyətinə və yol şəbəkəsinin genişliyinə görə dünyanın qabaqcıl ölkələrindən sayılan Finlandiyanın paytaxt Helsinkidən Rusiya sərhədinədək çəkdiyi 1-ci dərəcəli yolun (B tipli) hər kilometri 3,4 milyon dollara başa gəlib. Belə nümunələrin sayını artırmaq da olar. Ancaq oxucuları yormamaq üçün mühüm bir detalı vurğulamaqla bununla kifayətlənək - Qazaxıstanda yol tikintisində çalışanların əmək haqqı 5, Finlandiyada isə azı 10 dəfə Azərbaycanla müqayisədə yüksəkdir. Əgər Qazaxıstan və Finlandiyada yol tikintisi işçilərinin əmək haqqı fondu Azərbaycanla eyni səviyyədə olsaydı, bu göstəriciləri 2-yə bölmək lazım gələcək. İndi keçək Azərbaycandakı "standartlara".

Bakı-Ələt avtomobil yolunun 2-4 km hissəsinin, yəni cəmi 2 kilometrin *(Bayıl qəsəbəsi, Dövlət Bayraq Meydanının yaxınlığı)* əsaslı təmirinə dövlət büdcəsində 65 milyon manat *(82 milyon dollar)* ayrılıb - bir kilometrə 32,5 milyon manat *(42 milyon dollar)*. 82 milyon dollara Qazaxıstanda 50, Finlandiyada 25 km yolu sıfır variantından tikib təhvil vermək olardı.

Bakı-Astara yolunun 4-7 kilometrliyində *(Bibiheybət məscidi ilə Bayıl bazarı arasında olan hissə)* yolun genişləndirilməsi üçün dövlət büdcəsindən 85 milyon manat *(109 milyon dollar)* pul xərclənib. Yəqin ki, izafi şərhə ehtiyac yoxdur - 1 kilometrə 37 milyon dollar. Və yaxud da uzunluğu 21 km olan Bakı dairəvi yolunun tikintisinə 114 milyon manat *(146 milyon dollar)* xərclənib - 1 kilometrə 7 milyon dollar.

Nazirin yolboyu obyektlərin köçürülmə xərclərinin ümumi məbləğə daxil olması arqumenti barədə. Dövlət investisiyalarının bölüşdürülməsi üzrə Nazirlər Kabinetinin qərarlarında köçürülmə xərcləri olan layihələr konkret olaraq göstərilir. Sadalanan layihələrdə köçürmə xərcləri göstərilməyib. Məsələn, Heydər Əliyev prospekti ilə Ziya Bünyadov prospektinin kəsişməsində yol qovşağının tikintisi layihəsində tikinti zolağına düşən mühəndis xətlərinin və tikililərin köçürülməsi açıq şəkildə göstərilib. Yəni burada manipulyasiyaya yer yoxdur. Ona görə də Ziya Məmmədovun arqumentləri korrupsiya əməllərini ört-basdır etməkdən başqa bir şey deyil - Azərbaycan dünyanın bahalı yol tikintisi olan ölkələri sırasındadır. O tamam başqa söhbətin mövzusudur ki, baha qiymətə tikilən yolların keyfiyyəti də Avropa standartlarından müqayisəolunmaz dərəcədə aşağıdır.

Beləliklə, aydın olur ki, 20 milyarddan səmərəli istifadə olunmayıb. Bəs bu pullar hara gedib?

Dövlət büdcəsindən ayrılan pulların havaya sovrulması nəticəsində Ziya Məmmədovun ailə üzvlərinə məxsus "Qranat Holdinq", Cavid Qurbanova məxsus restoran və şadlıq evləri şəbəkəsi yaranıb, saysız-hesabsız villalar tikilib. Məmur-oliqarxlar son 10 ildə ölkənin yollarını düzəltmək əvəzinə, özlərinin yollarına qızıl döşəyiblər. Bu səbəbdən də Azərbaycan yollarını Avropa standartlarına uyğunlaşdırmaq üçün maliyyə baxımından zəngin olan 10 il itirilib. İtirən dövlət və cəmiyyət, qazanan isə bir neçə məmurdur.

**❑ Qadir İBRAHİMLİ**



# Dadaş müəllim

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxında Elmlər Akademiyasına seçkilər keçirildi, təzə akademiklərin siyahısında hakim ailədən azı 2 nəfərin adı var idi. Ona görə "azı" yazıram ki, siyahıya tam göz gəzdirməyə həvəs olmadı, həm də bizdə hakimiyyət ailəsinə kimin daxil olması, kimin çıxması çox vaxt gizli qalır, uca millətimiz bir də "su boğaza çıxanda" ayılır ki, sən demə, belənçik işlər var imiş.**

Qəttəzə akademiklərdən biri prezidentin doğmaca bibisi idi və bu bibinin, ömrü uzun olsun, 85 yaşı var idi. O, bu yaşda elmdə daha hansı akademiklik eləyəcək, bunu buraxaq AMEA-da ona səs verən alimciyəzlərimizin qoca vicdanına. Mən başqa bir detalı düşündüm: bu xanım axı mərhum Heydər Əliyevin bacısı olub! Guya Heydər Əliyev istəsəydi bacısına akademik adı verdirə bilməzdi? Etməyib. Ancaq indi sərbəst şəkildə edirlər.

Mən keçmişə nostalji ilə yanaşmıram, o dövr bəzi parametrlərinə görə indikindən pis idi və indinin bünövrəsi məhz o günlərdə qoyulub. Hər halda, yapistlər 1988-ci ildə başlayan xalq hərəkatına liderlik eləmiş dəstənin böyük hissəsinin Elmlər Akademiyası dəhlizlərindən çıxdığını anlayırdılar, ona görə bu "şeytan yuvası" ilk növbədə darmadağın edilməli idi. Ancaq unutmayaq ki, "Birinci Əliyev" uzun illər Ali Attestasiya Komissiyasına Azad Mirzəcanzadə kimi vicdanlı insanın rəhbərlik eləməsinə icazə vermişdi. Yaxud Midhət Abbasovu məlum və məşhur cavabından sonra repressiya etmədilər. Yazıq İsmayıl Vəliyev yadınıza gəlirmi?

Akademiyanın həmin iclasında, yadımızdan çıxmamış, 3 yeni institut da yaratdılar. Guya indiyə qədər olan elmi institutlarımız hansısa yaralı barmağa məlhəm olubmuş, təzələrinə ehtiyac yaranıbmış. Bəs bizim milli elmlərimizdəki o məşum üç boşluq, o üç qara dəlik nə üzrə imiş? Buyurun, adlarını oxuyun, feyziyab olun: Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Elm Tarixi İnstitutu, Dünya Siyasəti İnstitutu.

Rəhmətliyin uşağı, camaat az qala kor bağırsağını da kəsdirməyə İrana qaçır, sizin haranıza yaraşır axı molekulyar biologiya və biotexnologiya öyrənirsiniz? Kasıb itinin adını "Gümüş" qoyan kimi, bu dəbdəbəli adları hardan tapırsınız?

Dünya siyasəti lap fısqırıq söhbətdir. Daxili siyasəti araşdırıb yarıtmışıq. Məncə, bu instituta məşhur "Rusiya dağılır" geopolitik tezisinin müəllifi Vəfa Quluzadəni direktor qoymaq lazımdır. Səyavuş Novruzovla Zahid Oruc da direktor müavini olarlar.

Ancaq elm tarixini öyrənən, araşdıran quruma dəqiq ehtiyac var. Çünki bu gedişlə Azərbaycanda onsuz elm-filan qalmayacaq, qalsa tarixi qalacaq. Alimlərimiz orda elm tarixini araşdırıb Nyutonun başına düşən almaya imamların təsiri, Marsa uçan aparatın hansı hədisdə təsvir edilməsi mövzularında kitablar yazarlar. Zarafat eləmirəm, bu dəqiqə istiqamət belədir. Ancaq belə qüssəli anlarımda Dadaş müəllimin işıqlı xatirəsi mənə yaşamağa kömək edir.

Uşaq idim, bir gün nənəm hindən əcaib, qurbağaya oxşayan cücə gətirdi. Cücənin 4 ayağı var idi. Kənddə kimya-biologiyadan dərs deyən Dadaş müəllim təsadüfən həmin gün bizə gəlmişdi. Nənəm cücəni göstərdi, Dadaş müəllim gülərək dedi: "Bax, bu cücə Darvin nəzəriyyəsini - suda quruda yaşayanların quşların əcdadı olmasını isbat edir". Bu cümlə mənim uşaq yaddaşıma həkk olundu və böyüyəndə elmə hörmətimə təsir elədi.

İndi Suriyaya gedənləri, cin çıxardanları və sairə cahilləri görəndə fikirləşirəm ki, hər bir uşağın qabağına bir "Dadaş müəllim" çıxmalıdır. Özü də sizə deyim ki, həyat əslində qəddar deyil, sadəcə, biz onun qarşımıza çıxardığı "Dadaş müəllimlərə" çox zaman diqqət eləmirik.

**"Mən sizə açıq deyə bilərəm ki, ikitərəfli səfərlər zamanı, Avropa liderləri ilə ikitərəfli görüşlər əsnasında bax, bu 11 il ərzində bir dəfə də olmayıb ki, Azərbaycana qarşı hansısa bir hörmətsizlik və yaxud işimizə qarışma cəhdi görüm. Heç vaxt. Burada özünü müxalifət və yaxud hüquq müdafiəçisi adlandıran bəziləri hesab edirlər ki, bizə kimsə nə isə deyəcək, biz də onu edəcəyik. Bunlar sadəlövh insanlardır. Yumşaq desək, ya özləri sadəlövhdürlər, ya da ki, sadəcə olaraq belə rəy yaratmaq istəyirlər".**

# "Adnanın məsələsində Obama demişdi ki..."

## Hikmət Hacızadə: "Sadəcə, söhbət ondan gedir ki, ciddi demirlər, yəni sanksiya yoxdur"

Dövlət başçısı İlham Əliyev bu sözləri Bakıda Azərbaycanın xarici ölkələrdəki diplomatları ilə keçirdiyi görüşündə deyib. Prezident rəsmi Bakının hansısa addımı xarici təzyiqlər nəticəsində atması haqda deyilənləri təkzib edib. "Bu 11 il ərzində bizim daxili siyasətimizlə bağlı ikitərəfli formatda heç vaxt Avropa liderləri tərəfindən mənə bir söz deyilməyib. Bu gün mən bunu ilk dəfə deyirəm. Əlbəttə, beynəlxalq təşkilatlar deməlidir. Yəni bunların siyasi həyat tərzi belədir. Biz bunu sadəcə olaraq bilməliyik" deyə, ölkə başçısı bildirib.

Ancaq müşahidəçilər hesab edir ki, Azərbaycan hakimiyyətinin, ümumiyyətlə, aparıcı dünya güclərinin iradəsini nəzərə almaması mümkün deyil. Hətta bir sıra addımların atılmasında xarici faktorun önəmli rol oynadığına diqqət çəkirlər. Məsələn, fəal Bəxtiyar Hacıyevin həbsdən buraxılmasında ABŞ-ın sabiq dövlət katibi Hillari Klinton faktorunun olduğunu xatırlamaq kifayətdir. Xanım Klinton Bakıya gəldi və az sonra B.Hacıyev azadlığa qovuşdu. Yaxud elə bir müddət öncə AŞPA prezidenti Anne Brasseur REAL sədri İlqar Məmmədova yazdığı məktubunda qeyd etmişdi ki, ən yüksək siyasi səviyyədə ölkə rəhbərliyi ilə görüşləri zaman onun həbsi ilə bağlı məsələni qaldırıb: "Avropa İnsan Haqları Məhkəməsinin həbsinizin qanunsuz hesab edildiyi 22 may 2014-cü il tarixli qərarında sizin həbsinizin və istintaq müddətinin uzadılmasını konvensiyanın pozulması kimi dəyərləndirməsi mənə sizinlə və Azərbaycanda hökumətini tənqid etdiyinə görə oxşar təzyiqlər, hədə-qorxu ilə üzləşən digər vətəndaşlarla bağlı məsələni qaldırmaqda yardımçı oldu. Mən əminəm ki, Avropa Məhkəməsi tərəfindən çıxarılmış bu qərar sizin tezliklə həbsdən azad edilmənizə yardım etmiş olacaq. Bir qədər sonra, Parlament Assambleyasının Strasburqda keçirilən iclasında mən bu məsələni Azərbaycan prezidenti cənab İlham Əliyevin də nəzərinə çatdırdım. Müzakirələr zamanı prezident bu, eləcə də demokratiya, insan hüquqları, qanunun aliliyi prinsipləri, eləcə də gündəmdə olan digər məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün məni Azərbaycana işgüzar səfərə dəvət etdi. Mən prezidentin bu təklifini qəbul etdim və hazırda bu səfərin reallaşması üçün əlverişli tarix nəzərdən keçirilir" deyə, AŞ PA prezidenti yazıb. Burdan da göründüyü kimi, ölkə başçısına ayrı-ayrı məsələlərlə bağlı konkret müraciətlər edilir. Lakin hesab olunur ki, Azərbaycan prezidenti diplomatlar qarşısındakı çıxışında onunla hədə və ya təhdid dilində danışmağın mümkünsüzlüyünə işarə vurub və xahişlərə açıq olduğunu vurğulayıb.

**Politoloq Hikmət Hacızadə hesab edir ki, vəziyyət əslində belə deyil:** "Əlbəttə ki, həm prezidentlər, həm



RFS©

Hikmət Hacızadə

beynəlxalq təşkilatlar bu barədə Azərbaycan prezidentinə öz sözlərini deyirlər. Elementar Adnanın *(Hacızadə-red.)* məsələsində Obama demişdi ki, "burax uşaqları?" Bu barədə 100 faizlik sübutumuz var. Sadəcə, söhbət ondan gedir ki, ciddi demirlər, yəni sanksiya yoxdur. Ölkə başçısı bunu demək istəyir. Bu barədə dedikləri doğrudur".

**Ekspertin sözlərinə görə, beynəlxalq təşkilatlar da mövqeyini ifadə edir, lakin sanksiya qərarı yoxdur:** "Amma bu, həmişə belə olmayacaq. Bu faktlar hamısı üst-üstə yığılacaq, Rusiya məsələsi həll olunandan, yaxud neftin qiymətlərində hansısa dəyişikliklər olandan sonra bunlar hamısı masanın üzərinə qoyulacaq. Ona görə də əvvəldən elə siyasət aparmaq lazım deyil ki, sonradan peşmançılıq olsun. Hələlik Azərbaycanda seçkilərin düzgün keçirilməməsinə görə sanksiya, boykot, ya embarqo yoxdur".

❑ **Cavid TURAN**

# Rəfsəncani ABŞ-la əməkdaşlığı mümkün sayır

**Sistemin Məsləhətini Müəyyənləşdirən Qurumun rəisi ayətullah Haşimi Rəfsəncani İranla ABŞ-ın İraqda əməkdaşlığını mümkün sayır. "Media forum" saytının məlumatına görə, Rəfsəncani bunu Yaponiya mediasına müsahibəsində bildirib.**



Haşimi Rəfsəncani

Rəfsəncani deyib ki, İran birgə əməkdaşlıq üçün addım ata bilər: "Böyük ölkələrin beynəlxalq məsələlərdə ortaq mənafeyi var. İranla Amerika İraqda bir sıra oxşar problemlə üz-üzə qalıblar və mən İran-ABŞ əməkdaşlığının başlanması üçün hər hansı maneə görmürəm. Əgər iki ölkə birgə iş aparmağı zəruri saysa, oturub bu haqda proqram hazırlaya bilərlər.

Hazırda Amerika İraq üçün nəsə etmək istəyir. Biz də müəyyən addımlar atmaq, bir iş görmək istəyirik. Əgər İraqda terrorizmə qarşı görüləcək bu işlərin birgə əməkdaşlıq çərçivəsində həyata keçirilməsinə zərurət ortaya çıxsa, İranla ABŞ belə bir əməkdaşlığı qurmaq üçün müzakirə keçirə bilər.

İranın hazırda İraqda hərbi qüvvəsi yoxdur. Bizim yalnız hərbi müşavirlərimiz orada fəaliyyət göstərir. Terrorçuluğa qarşı mübarizədə bəzən elə məqamlar olur ki, hamı bir-birinə məşvərət verməlidir. Biz əvvəllər də bir sıra təhlükəsizlik məsələləri ilə bağlı İraq rəsmilərinə məsləhətlər vermişik".

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014

# Obama Azərbaycandakı təzə elçisinin adını açıqladı

**Səlahiyyət müddəti avqustun 2-də bitəcək ABŞ-ın ölkəmizdəki səfiri Riçard Morninqstarı əvəzləyəcək şəxsin adı açıqlanıb. Hələlik rəsmən təsdiqlənməsə də Ağ Evin yeni namizədinin Robert Cekuta olduğu bildirilir.**



# ABŞ "WikiLeaks"də adı keçən diplomatı Bakıya səfir göndərir

## Riçard Morninqstarı əvəzləyəcək Robert Cekuta da sələfi kimi Amerikanın enerji lobbisini təmsil edir; Rusiyanın regiona artan təhdidləri fonunda Ağ Ev ölkəmizlə münasibətləri yeni müstəviyə çəkir...

Publika.az-ın apardığı araşdırmaya görə, hazırda dövlət katibinin enerji məsələləri üzrə köməkçisinin böyük müavini vəzifəsində çalışan R.Cekuta R.Morninqstar kimi enerji sahəsi üzrə təcrübəli diplomatdır. Bu mənada hesab olunur ki, Vaşinqtonun Bakıya enerji mütəxəssislərini göndərməsi təsadüfi deyil.

Yeri gəlmişkən, səfir Morninqstar Bakıdan gethagetdə Azərbaycan hakimiyyəti ilə münasibətlərində ciddi çatlar yaranıb. Hətta hakim düşərgədə Morninqstara qarşı hədə kampaniyası da yenicə səngiyib. Belə bir ərəfədə gələcək elçinin hansı mövqedən çıxış edəcəyi və ya Bakının onu necə qəbul edəcəyi maraq doğurur.

Yeri gəlmişkən, Enn Dersinin gedişindən sonra ABŞ səfiri postu uzun müddət boş qalmışdı. Bu mənada ABŞ-Azərbaycan münasibətlərindəki soyuqluq fonunda səfir təyinatının gecikəcəyi ehtimalı da var idi. Ancaq regionda ciddi proseslərin, xüsusilə də Rusiyanın postsovet məkanı, o cümlədən Cənubi Qafqazla bağlı iddialar sərgiləməsi, Avrasiya İttifaqı ilə bağlı sürəkli prosesi sürdürməsi fonunda ABŞ-ın bura elçi göndərməyəcəyi o qədər də inandırıcı görünmür.

AzadlıqRadiosunun məlumatına görə, Cekuta hazırda dövlət katibinin enerji məsələləri üzrə köməkçisinin böyük müavini işləyir. Əvvəllər ABŞ-ın Əfqanıstan, Yaponiya və Almaniyadakı səfirliklərində müxtəlif vəzifələrdə çalışıb. 2003-2007-ci illərdə Berlində işləyən Cekuta burda ABŞ iqtisadi nazirinin vəkili vəzifəsini daşıyıb, 2007-ci ildə Tokioya gəlib, 2009-cu ilə qədər burda çalışıb. 2009-cu ildən sonra Dövlət Departamentinə təyinat alıb. R. Cekuta Albaniya, Avstriya, İraq, Cənubi Afrika, Yəməndə ABŞ Ticarət Nümayəndəliyinin Ofisində də işləyib. 2003-cü ildə ABŞ İraqa girərkən Əməliyyat Qrupunun İqtisadi Siyasət Analizi və Diplomatiyası istiqamətində çalışıb. Özü Bob Corctaun Universitetinin mütəxəssisidir. Həmçinin Qlobal İdarəetmə və Milli Hərbi Kollecin Tanderberd Məktəbində usta dərəcəsi alıb.

Maraqlısı odur ki, bir müddət əvvəl məxfi materialları ilə Vaşinqtonu lərzəyə salan məşhur "WikiLeaks" saytı 2008-ci ildə Tokioda çalışan Robert Cekutanın məxfi teleqramlarını da dərc edib. Publika.az-ın məlumatına görə, məxfi qrifli teleqramda deyilir: "İxtisası: İqtisadiyyat, Robert Cekuta. 1.4 (B).

Econoff İqtisadiyyat Nazirliyi haqda məlumatı çatdırdı. Ticarət və Sənayeyə nəzarət bölünəcək. Məmurlar deyir ki, bu müzakirə olunacaq. Yaponiya bazarına Sokkia şirkəti ilə çıxın və "EmnOff" ilə istənilən nəticəni bölün. İnformasiyada deyilir ki, onlar ABŞ-la daha uzaq perspektivdə də işləməyə hazırdır".

**Başqa bir məxfi teleqramda Cekuta yazır:** "Martın 4-də Tokio İctimai Təhlükəsizlik Bürosu və Xirosima perfektura polisi Horkos Karporasiyasının və Xirosima dəzgahları istehsalçının 4 yüksək vəzifəli şəxsini həbs etdi. İttiham lisenziya olmadan Cənubi Koreyaya və Çinə qeyri-qanuni ixracdır. Yaponiya hakimiyyət orqanları 2008-ci ilin əvvəlində firmaya basqın etdi. Baxmayaraq ki, mətbuat ixracın bir hissəsinin Şimali Koreyaya göndərildiyinə dair xəbərlər yazırdı". Məxfi teleqramda daha sonra məsələ ilə bağlı durum və çıxış yolları göstərilir.

İndi belə bir diplomatın Azərbaycana göndərilməsi təbii ki, rəsmi Bakı üçün arzuolunan deyil. Amma ekspertlərə görə, onun enerji mütəxəssisi olması amilinə daha çox diqqət yetirilməlidir. Çünki səfirlərin əsas vəzifəsi onsuz da məxfi yazışmaları həyata keçirib dövlətlərini məlumatlandırmaqdır.

Cekutanın Bakıya gəlməsi üçün onun namizədliyini ABŞ Senatının təsdiqləməsi lazımdır. Qeyd edək ki, Morninqstar ABŞ-ın Azərbaycanda səkkizinci səfiridir. Əvvəllər bu postu Riçard Mayls, Riçard Kozlariç, Stenli Eskudero, Ross Uilson, Rino Harniş, Enn Dörsi, Metyu Brayza tutub.

**Yeni gələcək səfirin energetika ilə bağlı olmasını təbii qarşılayan sabiq dövlət müşaviri Vəfa Quluzadə deyir ki, Azərbaycana gələn səfir mütləq gərək enerji məsələlərini yaxşı bilsin:** "Çünki Azərbaycanın əsas məhsulu neft və qazdır. Neft və qaza görə də Amerikanın Azərbaycanda maraqları bərqərar olub, bunun üçün Bakı-Ceyhan neft kəməri tikilib. Bu maraqların olması da Azərbaycanın təhlükəsizliyini təmin edir. Çünki Azərbaycana zərbə endirmək elə Amerikanın maraqlarına zərbə endirmək deməkdir. Buna da çətin ki, cəsarət edərlər. Rusiyanın özü belə indiyə qədər buna cəsarət etməyib. Baxmayaraq ki, Rusiya müharibəni ermənin əli ilə başlada və sonradan prosesə qoşula bilərdi. Lakin bunu da edə bilməyib. Çünki bu addımı atsa, qarşısında Qərbi görəcək. Ona görə də yeni səfirin enerji məsələlərini bilməsi zəruridir".

**Bununla ABŞ-ın Azərbaycanda demokratiya məsələlərini arxa plana keçirməsi haqda ehtimallara V.Quluzadənin maraqlı reaksiyası oldu:** "Demokratiya məsələlərini Azərbaycan xalqının özü həll etməlidir. Azərbaycan xalqı demokratiyaya nə qədər hazır olsa, o qədər tez ona nail olacaq. Kənardan demokratiyanın Azərbaycana gətirilməsi məndə qorxu yaradır. Çünki yadıma Əfqanıstan, İraq, Liviya düşür. ABŞ səfiri isə gəlib sadəcə demokratikləşməni izləyə bilər. Amma Amerika gəlib Azərbaycanda demokratik cəmiyyət qurmayacaq ki.

Gərək biz özümüz keçmiş mirasdan azad olaq. Təəssüf ki, Azərbaycan və digər keçmiş sovet respublikaları hələ də sovet həyat tərzindən xilas ola bilməyib".

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu isə ABŞ-ın səfir təyinatını ləngidəcəyi barədə maraqlı məlumat açıqladı:** "Mən qeyri-rəsmi mənbələrdən fərqli məlumat eşitmişəm ki, gələn ilə qədər hələ ABŞ-ın Azərbaycanda səfiri olmayacaq. Ona görə yeni səfirin adı ilə bağlı məlumat mənə maraqlı gəldi. Hər halda, səfirin yeri boş qalmayacaq, müvəqqəti işlər vəkili, yaxud digər kimsə ölkəni təmsil edəcək". **Ə.Oruclu qeyd etdi ki, adıçəkilən şəxsin səfir təyin olunması baş versə belə, bu, təəccüb doğurmamalıdır:** "Enerji məsələləri üzrə mütəxəssisin olması ehtimalına gəldikdə, bu, ABŞ-ın ənənəvi yanaşmasıdır. Səfir Morninqstar da əvvəl Vaşinqtonda enerji məsələləri üzrə mütəxəssis kimi çalışmışdı. Bu da Azərbaycanın enerji partnyori kimi Amerika üçün əhəmiyyətindən xəbər verir. Amerikanın Azərbaycanla əməkdaşlığında bir neçə amil mühümdür ki, bunlardan biri də enerji məsələsidir. Təbii ki, təhlükəsizlik və insan haqları ilə bağlı əməkdaşlıq da bura daxildir. Yəni belə bir şəxs səfir olacaqsa, təəccüblənmək lazım deyil. Üstəlik, əgər bu insan Almaniya və Yaponiyada çalışıbsa, deməli, təcrübəli diplomatdır. Amma təbii ki, əgər bu məlumatın əsası varsa..."

**ABŞ-da yaşayan siyasi ekspert Ramiz Yunus isə bu ölkənin Azərbaycandakı səfiri postuna namizədliyi irəli sürülən Robert Cekutanı təcrübəli diplomat kimi xarakterizə edir. Azərbaycandakı səfir Riçard Morninqstarın səlahiyyət müddəti başa çatır. "Media forum"a danışan Ramiz Yunus deyib ki, Cekuta çox təcrübəli diplomatdır, uzun illərdir Dövlət Departamentində müxtəlif yüksək vəzifələrdə çalışır:** "O, Amerikanın Əfqanıstan, Albaniya, Avstriya, İraq, Cənubi Afrika və Yəmən səfirliklərində işləyib. Son vəzifəsi dövlət katibinin enerji məsələləri üzrə baş köməkçisi olub. Cekutanın təyinatı ona dəlalət edir ki, Amerika Azərbaycanda olan enerji maraqlarını qoruyub saxlamaq istəyir".

**ABŞ-ın ölkəmizdəki səfirliyindən yayılan məlumatlara hər hansı münasibət öyrənə bilmədik.**

❑ E.PAŞASOY

# Rusiya Azərbaycana təzyiqi azaldıb, yoxsa...

## Müxalifət situasiyanın müəyyən qədər dəyişdiyini düşünür

**Qərbi Ukraynanın Rusiyapərəst separatçılardan azad edilməsi istiqamətində yeni hakimiyyətin başladığı əməliyyatlar, Avropa Birliyi ölkələrinin bu ölkəyə iqtisadi sanksiyaları Kremlin təxminən iki ay öncəyə qədər müşahidə olunan aqressivliyini xeyli azaldıb. Eyni zamanda regionun başının üstünü almış Avrasiya İttifaqı kabusunun da sanki öləzidiyi müşahidə olunur.**



Müxalifət partiyaları isə hesab edir ki, Azərbaycana Rusiyadan gələn Avrasiya İttifaqı təhlükəsi hələ də qalır.

Bu barədə "Yeni Müsavat"a açıqlamasında Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı bildirdi ki, Azərbaycan hakimiyyətinin guya balanslaşdırılmış xarici siyasət yürütdüyü iddia edilsə də bu, faktlarla görünmür. Bu da ondan irəli gəlir ki, Azərbaycan Qərblə Rusiya arasında seçimdə hələ tərəddüd edir. Amma həm siyasi təhlillər, həm də görünən ondan ibarətdir ki, Azərbaycan nə Qərbə, nə də Avrasiya İttifaqına qoşulma haqqında qərar verib: "Bu məsələdə gözləmə mövqeyi tutulub. Avrasiya İttifaqına daxil olmaqla guya Qarabağ məsələsinin həllinin yaxınlaşacağını deyən siyasilər də artıq mövqelərində dəyişiklik edirlər. Onlar da etiraf edirlər ki, Azərbaycanın Avrasiya İttifaqına qoşulması ilə Qarabağ probleminin həlli mümkün deyil. İndiki halda güman eləmirəm ki, Azərbaycan hakimiyyəti Avrasiya İttifaqına daxil olmaq kimi yanlış bir qərara imza atsın. Gürcüstan, Ukrayna və Moldovanın Avropa Birliyi ilə assosiativ sazişi imzalaması bu üç GUAM ölkəsinin Qərbə inteqrasiya xəttinin rəsmiləşdirilməsi oldu. Azərbaycanın da bu istiqamətdə rəsmi addım atması tam məqsədəuyğun olar. Amma mən Azərbaycan hakimiyyətinin Avrasiya İttifaqına daxil olması barədə qərar verəcəyinə özümü inandırmaq istəmirəm. Avrasiya İttifaqına qoşulmaq Azərbaycanın zərərinə olmaqla yanaşı, hakimiyyətin özünün sonu ola bilər. Bunu hakimiyyət də anlayır. Rusiya indi öz başının hayındadır, dünyada itirdiyi mövqeləri geri qaytarmaq haqqında düşünür. Odur ki, Azərbaycan üçün təhlükə bir müddət əvvəlki dövrə nisbətən azalmış sayıla bilər. Ancaq aradan qalxmayıb. Azərbaycan hakimiyyəti Ukrayna məsələsinə münasibətdə BMT-də tutduğu xətti sona qədər davam eləməlidir. Bu xətt eyni zamanda Dağlıq Qarabağın azad olunması xəttidir".

**ADP sədri Sərdar Cəlaloğlu da hesab edir ki, Avrasiya İttifaqı təhlükəsi tam aradan qalxmasa da, son proseslər nəticəsində müəyyən qədər azalıb:** "Avropanın Rusiyanı iqtisadi blokadaya alması, Ukraynada prezident seçkilərindən sonra milli hökumətin formalaşması və milli ordunu ciddi şəkildə reformasiya etmələri əvvəlki situasiyanı 30 faiz dəyişdirib. Rusiya bir neçə ay öncəki mövqelərini itirib. Amma Rusiya tamamilə zərərsizləşənə qədər proses davam eləməlidir. İndiki halda Azərbaycana və regiona Rusiya təhlükəsi azalıb, ancaq qalır.

Yeltsinin vaxtında Qərb, Avropa Çeçenistanı müdafiə etmədilər, hesab etdilər ki, artıq Rusiya milli dövlət çərçivəsinə gəlib düşüb. Ona görə də Çeçenistanı müdafiə eləmədilər. Elə ki, Rusiya çeçen məsələsini həll elədi, təzədən regional təhlükəyə çevrildi. Bu gün də Rusiyanın bir qədər geri çəkilməsinə arxayın olub, Rusiyaya basqıları dayandırmaq olmaz. Rusiya dünya nizamına tam tabe olana qədər-məsələn, Rusiya Qarabağ münaqişəsindən əlini çəkməlidir, Gürcüstan ərazilərini qaytarmalıdır və sair-təzyiqlər davam eləməlidir".

ADP sədrinin sözlərinə görə, Krım qaytarılanda biz biləcəyik ki, Rusiya təhlükəsi tam sovuşub.

❑ Etìbar SEYİDAĞA



# Təriflərin "duz"u azacıq az olsaydı...

**Hüseynbala SƏLİMOV**

**Hakimiyyətin iclaslarına tamaşa etmək və yaxud da orada səslənən fikirləri eşitmək bir ayrı aləmdir. Ona görə ki, bu, ölkədə canlı siyasətlə təmasda olmağın faktiki olaraq yeganə yoludur.**

Amma burada durub desək ki, diplomatik korpusun Bakıda keçirilən beşinci toplantısından böyük gözləntilərimiz vardı, bu, bir qədər qeyri-səmimilik olardı. Etiraf edirik ki, daha çox isterik tonlu bəyanatlar gözləyirdik.

Gümanımız da bizi aldatmadı, qismən də olsa, doğru çıxdı. Düzdür, ötən dəfəki toplantı ilə müqayisədə bəyanatların "sirkəsi" bir qədər az idi, gəl, bu toplantıda da beynəlxalq təşkilatların, hüquq müdafiə təşkilatlarının ünvanına bir xeyli irad səsləndi.

Ötən dəfə prezident daha sərt çıxış etmişdi. Hələ də onun bir bəyanatı qulaqlarımızda səslənir. O vaxt prezident demişdi ki, olmasın bu beynəlxalq təşkilatlar, məgər onlarsız Azərbaycan yaşamayacaqmı!?

Bu dəfə də birinci olaraq yada düşən məhz həmin təşkilatlar oldu. İndi də bir qədər mülayim tərzdə onlara əhəmiyyət verməmək tövsiyə olundu. Deyildi ki, bəyanat vermək, tənqid etmək onların fəaliyyət tərzidir.

Müstəqilliyin tərənnümü, Azərbaycanın necə müstəqil dövlət olmasının tərifi də yaddan çıxmadı. Prezident dedi ki, hələ bu vaxta qədər ikitərəfli görüşlərdə ona hər hansı irad bildirilməyib.

Təbii ki, burada azacıq şişirtmə vardı. Ən azı onun özünün əvvəlki etirafları bunu bir az təkzib edir. Bu vaxta qədər ölkədə demokratiyanın və insan haqlarının vəziyyəti ilə bağlı çox iradlar olub, bu və ya başqa siyasi məhbusun azad edilməsi tələb və ya xahiş olunub.

Amma müəyyən qədər olsa da o, hər halda haqlı idi. Əgər ikitərəfli görüşlərdə demokratiya məsələsi bir qədər kəskin qoyulsaydı, sanksiyalar olsaydı indi ölkədə vəziyyət fərqli olardı.

Hamı prezidentin çıxışından gündəmi məşğul edən əsas məsələlərə aydınlıq gətirilməsini gözləyirdi. Bu, birinci növbədə Avropa Birliyi ilə əməkdaşlığın perspektivi, Avrasiya İqtisadi Birliyinə münasibət, Ukraynada və keçmiş SSRİ ərazisində cərəyan edən hadisələrə reaksiya idi.

Avropa ilə bağlı proseslər yarımçıq qalıb. Bakıda səfərdə olan Avropa Komissiyasının prezidenti Azərbaycanı bir neçə dəfə açıq mətnlə assosiasiya sazişi imzalamağa çağırdı. Amma buna reaksiya olmadı.

Avrasiya İqtisadi Birliyi ilə bağlı çox narahatlıqlar yaşanır. Hamı bu xüsusda rəsmi açıqlama gözləyir.

Elə Ukrayna hadisələri də az önəm kəsb etmir. Bu yaxınlarda ATƏT-in Parlament Assambleyasının Bakıda keçirilən toplantısında Rusiya əleyhinə qətnamə qəbul edilməli idi. Azərbaycan düşünülmüş şəkildə bu prosesi onun əsas hədəfindən yayındırdı.

Diplomatik korpusun toplantısında da Ukrayna yada düşmədi. Kimsə deyə bilər ki, bu, diplomatiya tonunda olan məsələdir, hər şeyi açıq demək olmur.

Amma dünyadakı prosesləri izləyən siyasətçi müxalifətdən, beynəlxalq və yerli təşkilatlardan danışanda da ehtiyatlı olmalı, diplomatik çərçivələri gözləməli idi. Nədənsə bu mövzuda danışanda diplomatiya çıxışçıları bir o qədər də narahat etmədi.

Bu hakimiyyətin hamısı siyasi iradədən danışmağı sevir. Amma siyasi iradə bəzi hallarda vəziyyətə adekvat çıxışlar etməyi, qətiyyət göstərməyi tələb edir. Onların siyasətində isə bu, yoxdur. Hamı ilə dost olmaq, hamının maraqlarını təmin etmək - bunların aparmaq istədiyi siyasət budur. Amma hamı üçün, həmişə yaxşı olmağı hətta Allah da bacarmır.

Ən əsası odur ki, hakimiyyətin mərhəmətindən nədənsə öz cəmiyyətinə, yerli təşkilatlara və müxalifətə pay düşmür. Sanki onlar hamı ilə ona görə dost olmaq istəyirlər ki, ölkənin daxilində özlərini monarx kimi apara bilsinlər...

Doğrusu, müstəqilliklə bağlı tərifləri də başa düşməyə cəhd edirik. Bu ölkədə haminin, xüsusən də dövlət rəsmilərinin çıxışlarında müstəqilliklə bağlı, Azərbaycanın necə qüdrətli dövlət olması haqda elə bəlağətli sözlərə təsadüf edirsən ki, bircə anlığa donub qalırsan: əcəba, bəlkə elə doğrudan da belədir?

Amma elə dərhal da yadına bir detal, bəli, məşhur "On iki stul"dan maraqlı bir epizod düşür - adi əyalət qəsəbəsi olan Vasyukinin dünyanın şahmat mərkəzinə çevrilməsi...

Ümumiyyətlə, hakimiyyət nümayəndələrinin isterik bəyanatlarında olduğu kimi tərifləri də "duz" çox olur. Özlərini lap unudurlar. Amma reallıq hissi də yaxşı şeydir. Ona görə də hərdən Yerə enmək də pis olmazdı.

# Aslan İsmayılov qətldə iştirakla bağlı ittihamlara cavab verdi

## Vəkil: "Zaməddin Həmişəyev kimisini görməmişəm"

**Tanınmış vəkil Aslan İsmayılov sevgilisinin məşuqu tərəfindən öldürülən həkim-kardioloq Cavid Həmişəyevin atası Zaməddin Həmişəyevə facebook səhifəsində cavab verib. Qeyd edək ki, Z.Həmişəyev A.İsmayılovu oğlunun qətlinin sifarişçisinə hüquqi məsləhət verməkdə, cinayətdə iştirakçılıqda ittiham edib.**



**A.İsmayılovun mərhum C.Həmişəyevin həyat yoldaşı İradə Oruclunun vəkili olaraq mərhum həyat yoldaşının əmlakını adına keçirməsinə hüquqi yardım göstərməsini qanunsuz sayıb. Vəkilin Z.Həmişəyevin ittihamlarına cavabını təqdim edirik:** "32 ildir ki, hüquq sahəsində işləyirəm. Bu dövr ərzində canilər, fitnəkarlar, zərərçəkənlər və bir çoxları ilə mürəkkəb vəziyyətlərdə görüşmüşəm. "Azadlıq" qəzetində mənə cavab yazan Zaməddin Həmişəyev kimisini həqiqətən heç vaxt görməmişəm. Bir daha təkrar edirəm, bu cür şəxslərə heç vaxt cavab verməmişəm və indi də verməzdim. Sadəcə, gəlini olan bir xanıma etdiklərinə həqiqətən susmaq olmur. Bilirəm ki, hakimiyyətin işi-gücü mənim başımı bu tip insanlarla qatmaq olsa belə, yenə susa bilmirəm. Anlamadığım bir şey var, bu insanın etdikləri murdarlıqları, atdığı şər-böhtanları yüzlərlə insan bilir, hər gün mənə şikayətlənirlər, bəs niyə susurlar? Bunun etdiklərini hamı bilməlidir ki, insanlar görsünlər ki, tək oğlunu itirmiş insan hansı əməllərdən çıxa bilər. Bu bədbəxtçilikdən qamətinin əyilməsi əvəzinə şou proqramlarda deyib-gülər, oğlunun hansı şəraitdə qətlə yetirildiyini ilk saatlardan bilə-bilə KİV-lərə "oğlum xəstə yanına gedəndə öldürülüb", "oğlumu tibb mafiyası öldürdü", "oğlum Nobel mükafatına görə dostları tərəfindən öldürüldü" və s. bəyanatları ilə mətbuatın gündəmini və insanların şüurunu zəbt etmək istəyər. Buna nail ola bilmədikdə insanları həyasızcasına şərləyə bilər. Kənd yerində hər kəsin dəyəri onun böyüklərinə bəslədikləri münasibətlə ölçülür. Bu qətl işinin müzakirə olunmadığı orqan qalmadı. Rayon prokurorluğundan alıb, şəhər prokurorluğuna verdilər. Dəfələrlə Baş Prokurorluqda bu işin müzakirəsi oldu. İşin mahiyyətini bilən, abırı-həyası olan şəxs bu işi bu qədər ictimailəşdirməzdi. Məni təəccübləndirən başqa bir məqam KİV-lərin heç bir araşdırma aparmadan insanları, xüsusilə xanımları ləkələyən yazıları tirajlamasıdır. Şər-böhtanın da bir əndazəsi olar! Bir daha təkrar edirəm, ortada bir xanımın bir insanlığını itirmiş tərəfindən cavabsız təhqirlərə məruz qalması halı olmasaydı, beləleri ilə heç vaxt üzləşməzdim. Mənə qarşı irəli sürdüyü ittihamın birinci bəndi: "Hadisə olan gün Aslan İsmayılov rayon prokuroru Fikrət Mahmudova, saat 21.00 radələrində mobil telefonla zəng edərək deyib ki, sizin rayon ərazisində qətl hadisəsi törədilib, məşhur bir həkimi qətlə yetiriblər, onun vəkili mən olacam! Əlövsət Ağamoğlanovun iştirakı ilə dedi". Axı bu həyasızlığı yoxlamaq çətin deyil. Telefon zəngləri ilə bu gün hər şeyi müəyyən etmək olur. İnsan bu qədər həyasız, vicdansız, ağılsız olar?! Əgər bunun ağlı uçubsa bir yiyəsi yoxdurmu? Yoxsa hesab edirlər ki, məni də İradə Oruclu kimi gözümçıxdıya salacaqlar?! Məhz bunların bu həyasızlığına görə gəlinləri iki uşağı ilə birlikdə ona və həyat yoldaşına məxsus evi bunlara atıb qaçdı. 1 ildir iki nəvəsindən xəbəri olmayan birisi, oğlunun qətlinin üçüncü günü artıq onun əmlaklarını axtardı, oğlunun bəzi borclarını ödəyən etibarlı dostlarının hamısına iftira atdı, gəlininə qarşı bir neçə məhkəmə mübahisəsi açdı. İnanın, dilə gətirilməsi ayıb olan çox şeylər var. Qətlin hansı şəraitdə baş verdiyini bildiyimizdən çoxlarımız cavab vermirdik ki, ayıbdır. Mərhumun doğmaları isə bunu başa düşmədilər, daha da azğınlaşdılar. Məhkəmə zalında mənim ifşa etdiyim canilərin bu tiplərin mənə yağdırdıqları təhqirlərə necə sevindiklərini hamı gördü. Bunların öz balalarının ruhuna etdikləri hörmətsizliyi heç kim edə bilməzdi. İnsan bu qədərmi... Bununla da bu məsələ mənim üçün bitdi! Bundan sonra digər təhqirə məruz qalanlar cavab versinlər. Həqiqətən həyatımda bu cür murdarlığa bulaşmamışdım".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Güllələnən zabit müdafiə nazirinin oğlunun tələbə yoldaşı imiş

## Qətlə yetirilən tabor komandiri, mayor Emil Əsgərlinin ailəsi nə ölüm kağızını, nə sığortasını ala bilir; ölümün səbəbləri müəmmalıdır

**Mayın 15-də Beyləqanda yerləşən N saylı hərbi hissənin tabor komandiri, mayor Emil Əsgərli müddətdən artıq xidmət edən hərbi qulluqçu İlkin Məhərrəmov tərəfindən güllələnib. Tabor komandiri baş, bədən və ürək nahiyələrindən aldığı 6 güllə yarasından hadisə yerindəcə keçinib. Mayor 6 əsgəri ilə birlikdə hərbi postlardakı vəziyyəti yoxlamaq üçün əraziyə çıxıblar.**



Onlar MAXE İlkin Məhərrəmovun döyüş postuna gəldikdə onun öz vəzifələrini düzgün yerinə yetirmədiyini müşahidə ediblər. E.Əsgərli də bunu ona irad tutaraq, bölüyə qayıtmasını və orada vəzifələrini öyrənməsini bildirib.

İ.Məhərrəmov bölüyə qayıdıb, əynini dəyişərək mülkü formada posta dönüb. E.Əsgərli ilə yanındakı 6 nəfərin anidən qarşısına çıxaraq, onlara atəş açmağa başlayıb. İlk güllə elə Emilə ayağından dəyib. Yanındakılar isə qaçmağa macal tapa biliblər. Daha sonra İlkin Emilə daha 5 güllə vuraraq, qətlə yetirib. Lakin E.Əsgərlinin yaxınları baş vermiş hadisənin müəmmalı olduğunu bildirirlər. Bu günə kimi mayorun ailəsinə nə ölüm kağızı, nə sığortası verilib. Ailəsinə deyilməyib ki, övladları hansı səbəbdən qətlə yetirilib.

**İyulun 8-də isə ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov E.Əsgərlinin ailəsi ilə görüşüb. Ü.Cəfərov deyir ki, yoxlanılmamış şəxslərin müddətsiz hərbi xidmətə qəbul edilməsi axırda bu cür faciə ilə nəticələnir. Onun sözlərinə görə, hərbi şəraitin dözümsüzlüyü, mənəvi-psixoloji durumu İ.Məhərrəmlini qatilə çevirib. Əsgərlinin valideynləri Ü.Cəfərova bildiriblər ki, iki aydır cavab ala bilmirlər:**

"Ömrünün 18 ilini vətənə həsr etmiş 32 yaşlı mərhum zabitimizin atası, anası və qardaşı ilə xeyli söhbət etdik. Müdafiə Nazirliyi rəhbərliyinin də, müvafiq qurumların yetkililərinin də bilməsi vacibdir. İki aydan çoxdur valideynlərin göz yaşları qurumaq bilmir. Təqdim etdikləri sənədlərə baxanda, adamı dəhşət bürüyür.

Bu cür zəkalı və bacarıqlı bir cavan zabitimiz necə ola bilər ki, hansısa özbaşına MAXE-nin cinayətinin qurbanı olub? Və necə olur ki, hadisə zamanı orada olan digər şəxslər zərər görmür, yalnız belə bir istedadlı, bacarıqlı bir zabit qətlə yetirilir?"

**Ü.Cəfərov qeyd etdi ki, E.Əsgərli C.Naxçıvanski adına Hərbi Lisey, H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, Çin Xalq Respublikasında hərbi kursları bitirib:** "Belə bir cavan zabitimiz sanki kimlərinsə və bəlkə də bizim bilmədiyimiz məsələlərin qurbanı olub. Hərbi sahənin genofondu sayıla biləcək belə oğullar vaxtsız dünyalarını dəyişməməlidirlər. Valideynlərini ən çox incidən isə Müdafiə Nazirliyinin cavabdeh şəxslərinin mayor rütbəsində, tabor komandiri kimi mühüm vəzifəni daşıyan hərbçinin ailəsinin taleyinə biganə yanaşmasıdır".

**Hərbçi mütəxəssis əlavə etdi ki, E.Əsgərli müdafiə naziri Zakir Həsənovun oğlunun tələbə yoldaşı olub:** "Hazırda Bakının Nərimanov Rayon Mühafizə Polisinin rəis müavini vəzifəsində xidmət keçən nazir oğlu polkovnik-leytenant Nazim Həsənovla bir yerdə hərbi təhsil alıblar.

Atası danışdı ki, bir neçə dəfə oğluna nazirin oğlu ilə danışmağı, onu başqa bir hərbi hissəyə keçirilməsini xahiş etsə də, Emil buna razılaşmayıb. Azərbaycanın əlaqədar yetkililərinə deyirəm ki, vəzifə borclarını yerinə yetirərkən həlak olmuş zabit və ya əsgərlərimizin ailələrinə diqqətlə yanaşsınlar".

❑ **E.SALAMOĞLU**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi





# Moskva Qarabağa dair öz oyununa başlayıb

## Ekspertlərə görə, Rusiyanın problemin həllinə baxışı kardinal dəyişikliyə uğramayıb, sadəcə, taktika dəyişib; Qərb də öz oyununu oynayır; Bakı isə Minsk Qrupunun dəyişdirilməsinin tərəfdarı deyil...

**Belə görünür, Minsk Qrupunun üç həmsədr ölkəsi arasında Qarabağ məsələsində birgə hərəkət etməklə bağlı hansısa anlaşma, yekdillik yoxdur. Əslində heç vaxt olmayıb da. Amma indi daha qabarıq şəkildə özünü büruzə verməkdədir. Hərçənd ATƏT-in Minsk Qrupunun Rusiya, ABŞ və Fransadan olan həmsədrləri vaxtaşırı belə görüntü yaratmağa çalışırlar ki, guya üç ölkənin məsələyə ortaq yanaşması mövcuddur.**

Fakt isə bundan ibarətdir ki, Ukraynaya görə Rusiya-Qərb münasibətlərinin gərginləşməsi Qarabağ ixtilafında da özünü ciddi şəkildə göstərməkdədir. Bunu ilk olaraq amerikalı həmsədr Ceyms Uorlikin problemin həllinə dair ayrıca hazırladığı 6 bəndlik təkliflərdən gördük. Az sonra Güney Qafqaza səfər edən Fransa prezidenti Fransua Olland Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə təkbətək görüşünü təşkil eləmək üçün faktiki olaraq, Rusiyanın xəbəri olmadan birtərəfli, ABŞ-la sinxron təşəbbüsdə bulundu *(Amerika rəsmiləri, Azərbaycandakı və Ermənistandakı səfirlər, vasitəçi Uorlik dəfələrlə görüşün baş tutmasının vacibliyi haqda bəyanatlar verdilər və verməkdə davam edirlər).*

Yəni bir yanda Fransa və ABŞ, digər yanda isə faktiki olaraq Rusiya təkbaşına hərəkət etmək istəyirmiş kimi görünür. Lakin Rusiya zaman-zaman, Ermənistanın əli ilə sübut edib ki, problemin nizamlanmasında həlledici söz sahibliyi ona verilməsə, heç bir irəliləyişə imkan verməyəcək. Rusiyanın həlledici söz sahibliyi isə tərəflər, ələlxüsus Azərbaycan üçün ağır şərtlər deməkdir.

İndiki mərhələdə Moskvanı nə münaqişə tərəfləri arasında anlaşma maraqlandırır, nə də Azərbaycan və Ermənistan prezidentlərinin təkbətək görüşü. Rusiya bütün gücünü Avrasiya Birliyi layihəsinin baş tutmasına, bu layihənin həyata vəsiqə almasında mühüm rol oynaya biləcək Azərbaycanı quruma qoşmaq üçün planlar qurmağa yönəldib. Prezidentlərin görüşü bu planlara mane olardı.

Təbii ki, Moskvanın planların içində Bakıya təklif ediləcək Qarabağ bazarlığı da var. Beləcə, Qarabağ məsələsində vasitəçi ölkələr *(Fransa və ABŞ timsalında Qərb və Rusiya)* heç vaxt olmadığı qədər öz oyunlarını oynamağa başlayıb. Bunun Azərbaycana, Qarabağ məsələsinə xeyri, yaxud ziyanının olacağını söyləmək çətindir. Ən azı ona görə ki, nə Moskva, nə də Vaşinqton və Brüssel məsələdə tam ədalətli, beynəlxalq hüquqa söykənən mövqe tutmaqdan eyni dərəcədə uzaqdır.

Konkret Rusiyaya gəlincə, Kremlin mümkün Qarabağ bazarlığı Ermənistanın mövqeyini ciddiyə almamağı özündə ehtiva edir. Başqa sözlə, Rusiya bir növ indi həm də işğalçı ölkənin adından, onun sözçüsü qismində çıxış etməyə başlayıb. Yeni dönəmin bir özəlliyi də budur. Rusiyanın yeni Qarabağ oyununun detalları, qaydaları isə hələlik yalnız onun özünə məlumdur.

**Ekspertlər isə bu xüsusda heç də nikbin deyillər. Məsələn, Qarabağ probleminin tənzimlənməsində beynəlxalq səylərin hansı səviyyədə olduğunu şərh edən politoloq Vəfa Quluzadəyə görə, münaqişəsinin həlli məsələsi ilə bağlı proseslər olduğu kimi qalır (modern.az):** “Rusiya Qarabağ kartından istifadə edib Azərbaycanı öz tərkibinə sürükləmək niyyətindədir. Rəsmi Moskva Azərbaycanı bununla Avrasiya İttifaqı layihəsinə cəlb etməyi düşünür”.

**Quluzadənin sözlərinə görə, ABŞ başda olmaqla Qərb isə Azərbaycanla Ermənistanı barışdırmaq istəyir. Ekspert düşünür ki, Qərb dünyası bununla Ermənistanı Rusiyanın təsirindən çıxarmağı planlaşdırır:** “Çünki Ermənistan Rusiya tərəfindən idarə oluna-oluna Qərbin təşəbbüsləri müsbət nəticə verə bilməz. Bu səbəblərdən dolayı Dağlıq Qarabağ məsələsində durğunluq davam edəcək və heç bir nəticə olmayacaq”.

**Analitikin qənaətincə, Qarabağ problemində dönüş olması üçün Rusiyanın zəifləməsi və ya Moskva hakimiyyətinin dəyişməsi vacib şərtdir. Politoloq konfliktin nizamlanmasında Rusiyanın Qərbi sıxışdıraraq, təşəbbüsü öz əlinə alması ilə bağlı deyilənləri isə belə dəyərləndirib:** “Bu cür şərhlər başdan-ayağa yalandır. Belə məlumatları, görünür, Rusiyanın ”beşinci kolon"una məxsus insanlar yayırlar. Rusiyanın Qarabağ məsələsində mövqeyində xüsusilə Azərbaycanın xeyrinə heç bir dəyişiklik yoxdur. Rusiya təşəbbüsü belə ələ almaq istəyir ki, işğal altında olan bir-iki rayonu azad etsin. Amma burada məqsəd başqadır. Rusiya bununla həmin ərazilərdə qoşunlarını yerləşdirmək istəyir. Bu isə erməni işğalından da pisdir".

***

Bəzi ekspertlərə görə, Moskva üçün indi ən optimal variant status-kvonu saxlamaqdır. **Məsələn, erməni politoloq Sergey Minasyan** hesab edir ki, Rusiya Qarabağ ətrafı situasiyada hazırkı durumun saxlanmasında maraqlıdır.

**Onun sözlərinə görə, Kreml yaxşı başa düşür ki, Azərbaycan Qarabağı alandan sonra Rusiya ilə əlaqələri kəsəcək və Qərblə yaxınlaşmağa başlayacaq:** “Nəticədə Moskva üçün Güney Qafqazda ən iri ticari tərəfdaşlardan birini itirmək təhlükəsi yaranacaq. İrəvana gəlincə, onun Moskva ilə əməkdaşlığı üçün hər hansı stimul və etimad limiti qalmayacaq. Bu da başqa yandan Rusiyanın maraqlarına zərbə olacaq. Hər şey bir qırağa, hazırda konfliktin tərəflərdən birinin xeyrinə həlli proqnozlaşdırılmayan nəticələrə gətirə, regionda vəziyyətin kəskinləşməsi riskini yarada bilər. Beləcə, indiki məqamda Moskva üçün ən optimal və arxayınlıq yaradan variant - vəziyyətin olduğu kimi saxlanmasıdır. Hansı durum ki, situasiyadan asılı olaraq Kremlə imkan yaradır ki, gah Bakıya, gah da İrəvana təzyiq eləsin”.

***

Bununla belə, rəsmi Bakı həlе ki Rusiya, ABŞ və Fransanın həmsədr olduğu və fəaliyyəti ciddi nəticələrə gətirməyən Minsk Qrupundan imtina etməyə də hazırlaşmır. “Azərbaycan Xarici İşlər Nazirliyi Minsk qrupunda dəyişiklik edilməsinin tərəfdarı deyil”. “Trend”in məlumatına görə, bunu Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov jurnalistlərin sualına cavabında deyib.

**Əzimov Minsk Qrupunun dəyişdirilməsinin, ümumiyyətlə, əleyhinə olduğunu söyləyib:** “Minsk Qrupu beynəlxalq cəmiyyətin ən önəmli oyunçularını özündə cəmləşdirib. İkincisi, qrup 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə təsdiq olunub. Bu qətnamələr bizim mövqelərimizin əsasını təşkil edir. Mövqelərə selektiv əsasda, seçkili əsasda yaxınlaşmaq olmaz. Qətnamələr bütövlükdə öz əhəmiyyətini saxlamalıdır və bütövlükdə yerinə yetirilməlidir. Minsk Qrupunun dəyişdirilməsi o qətnamələrə də zərər verəcək. Nəhayət, Minsk Qrupunun formatı ermənilər iddia etdiyi Dağlıq Qarabağ ermənilərinin prosesdə iştirakı məsələsini aradan götürür. Çünki Minsk Qrupunda məhz o formatda həm azərbaycanlılar, həm ermənilər Dağlıq Qarabağın icmaları olaraq prosesdə dövlət səviyyəsində yox, maraqlı tərəflər kimi iştirak etməyə qadirdirlər. Qərar qəbul etmə prosesində iştirak etmirlər, lakin öz mövqelərini eşitdirə bilirlər. Ona görə Minsk Qrupunun formatı bizim üçün, elə hamı üçün, belə desək, ermənilər bunu indi qəbul etməsə belə, onların da maraqlarına və mövqelərinə uyğundur”.

# “Səmi 5 rayonun qaytarılmasından söhbət gedə bilməz”

## Rəsmi Bakı işğal altındakı ərazilərimizin sortlara bölünməsinə qarşıdır; ABŞ Dövlət Departamentinin illik hesabatlarında da Dağlıq Qarabağ zəbt edilən ərazi kimi göstərilib...




**“Prezident həmişə bəyan edir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməkdə qərarlıdır, cəmi 5-7 rayonun qaytarılmasından söhbət gedə bilməz”. “Trend”in məlumatına görə, bunu xarici işlər nazirinin müavini Araz Əzimov jurnalistlərə Dağlıq Qarabağ ətrafındakı rayonların qaytarılmasına dair səslənən fikirləri şərh edərkən deyib.**

Əzimovun sözlərinə görə, Azərbaycan prezidenti İlham Əliyev iyulun 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsində çıxışı zamanı bildirib ki, 7 rayondan başqa Dağlıq Qarabağ ərazisi də işğal altındadır.

Nazir müavini qeyd edib ki, Azərbaycanın mövqeyi ondan ibarətdir ki, işğal altında olan Dağlıq Qarabağ və ona bitişik 7 rayon boşaldılmalıdır: **“Azərbaycan tərəfi həmişə bu məsələni belə qoyub. Bizim dövlət başçımız həmin nitqində bunu bir daha təsdiq edib”.**

Xatırladaq ki, elə Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin Ukrayna hadisələrinin qızğın vaxtında Dağlıq Qarabağ problemin həllinə dair irəli sürdüyü, Azərbaycan ərazilərini sortlara bölən 6 bəndlik təklifini srağagün Birləşmiş Ştatların Ermənistandakı səfiri Con Heffern erməni mətbuatına şərh edib.

Səfir Dağlıq Qarabağ ətrafındakı ərazilərin qaytarılması məsələsinin münaqişənin nizamlanmasında 6 elementdən biri olduğunu yada salaraq xüsusi qeyd edib ki, bu bənd Dağlıq Qarabağ ətrafında olan rayonların dərhal Azərbaycana qaytarılmasını nəzərdə tutmur. Sitat: **“Dağlıq Qarabağın yekun statusu yerli əhalinin öz iradəsi əsasında formalaşacaq. Daha sonra Laçın dəhlizi istisna olmaqla, Dağlıq Qarabağ ətrafında ərazilər geri qaytarılacaq. Ona görə də mənim sözlərimdə yeni heç nə yoxdur”.**




Yəni faktiki olaraq söhbət işğal altındakı ərazilərimizin növlərə bölünməsi, Azərbaycan tərəfinə də bunu elə bu şəkildə qəbul etdirmək cəhdlərindən gedir. Halbuki ABŞ Dövlət Departamentinin hər il dünyada insan haqlarının vəziyyətinə dair açıqladığı hesabatda “Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik 7 rayonunun erməni silahlı birləşmələrinin nəzarətində olduğu” xüsusi qeyd edilir. Başqa sözlə, Dağlıq Qarabağla 7 rayon arasında faktiki, fərq qoyulmur, ərazilərimizin işğal edildiyi təsbit olunur.

Demək, amerikalı səfirin məlum təklifi departamentin hesabatında yazılanlarla, Amerikanın rəsmi mövqeyi ilə ziddiyyətdədir. O zaman 6 bəndlik təklifə nə ad verək: ikili standart siyasəti, yoxsa məqsədli unutqanlıq siyasəti?

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014




# Qoca yazarlar hakimiyyətin nəyinə lazımdır?

## Gənc yazarlar bu məsələyə fərqli yanaşır...

**Bir müddət əvvəl Azərbaycan Yazıçılar Birliyində keçirilən qurultayda daha çox qoca yazarlar diqqəti cəlb etdi. Yazıçılar Birliyi və ümumilikdə ölkənin ədəbi mühiti sanki ətalətin və qocaların səssizliyinə bürünüb. Heç bir potensialı olmayan, tükənmiş yazıçıları isə hakimiyyət ətrafında, yanında saxlamaqda nədənsə maraqlı görünür. Görəsən, həmin yazarlar hakimiyyətin nəyinə lazımdır və onlar hakimiyyətə hansı dividenti gətirirlər?**

**İqtidara yaxınlığı ilə seçilən deputat Zahid Oruc** problemi belə izah edir: "Əlbəttə, bu, "atalar və oğullar" problemi təkcə Azərbaycan cəmiyyətinin deyil, dünyanın və bütün tarixi dövrlərin problemi kimi meydana çıxıb. Və sinifli cəmiyyətlər zamanında da, hətta ictimai ictima quruluşunda da bu, müəyyən problem kimi özünü təzahür etdirib. Hər ölkədə bu problem müxtəlif formada olub. Daha yaşlı insanlar üzərində idarəetmə sistemi qurulub, cəmiyyətin aparıcı qüvvələri onlar sayılıb və sırf bu oturuşmuş ağıl, təsadüfi hallara yer verməmə, eyforiyaya qapılmama, böyük təcrübə və sair məsələlərə istinad edərək bu cür addımlar atırlar. Cəmiyyətlər var ki, gənclər ordusundan nəfəs alırlar, əsas onlara istinad edirlər. Ölkənin ictimai, siyasi həyatında onlara böyük mövqe veriblər və forpostda olan həmin gənclik milli ideyaları reallaşdıra bilir, ona gücü çatır və onların energetik imkanları, impulsivliyi, gücü, qüvvəsi, xalqın ümumi maraqlarına da zərbə vurmur. Ancaq bu məsələdən sırf yazıçılar üzərindən gəlsək, əgər bütün diskussiyalar yenə də hər zaman daha çox tənqid olunan Anarla bağlıdırsa, mən onu yaşına görə tənqid etməyin əleyhinə olardım. Onu kifayət qədər istedadlı, Azərbaycan xalqının milli-mədəni həyatına töhfələr vermiş, milli düşüncənin formalaşmasında rolu olan, millət quruculuğuna xidmətləri qatılan bir insan kimi tanıyıram. Anar o quruma seçilməməlidir- yalnız ona görə ki, yaşı artıq 70-i keçib, tezisi də mənim tərəfimdən qəbul olunmaz. O cümlədən hakimiyyət yalnız yaşlı olduğu üçün Anarı seçdi devizi də mənə elə gəlir ki, məlum, tənqidçi gənclərin silahlarıdır. Əsl həqiqətdə Anar mənə elə gəlir ki, xalqın bütün təbəqələrinə cani dildən xidmət etməyə çalışır. Amma həqiqətənmi bu gün Yazıçılar İttifaqı civarında, onun miqyasında gənclər boğulur? Hakimiyyət həqiqətənmi yaradıcı, istedadlı, qələm qabiliyyətli, fikir istehsalçısı, ideyaları olan, düşünmə qabiliyyəti və bir az da irəli gələrək müxtəlif, Azərbaycanın sərhədlərini aşa biləcək imza kimi tanınan, yəni brend imzaları boğur, onlara meydan tanımır, gələcək Nobel mükafatçılarının qarşısını alır? Bunu həm də Yazıçılar Birliyinin elitasını yalnız qocalardan ibarət qurmaqla edir? Bu, bilirsiniz, dəqiq analiz deyil mənə görə. Mən gəncliyin çox nümayəndələrini şəxsən tanıyıram. Onlar keçmişin inkarı üzərində öz varlıqlarını realizə etmək istəyirlər. Qabiliyyətli bir yazar kimi meydana çıxmağa çalışırsansa, hökm deyil inkarı inkar qanunu ilə hərəkət edəsən. Əsərini ortalığa qoy, Azərbaycan miqyaslarını aş, Anardan gücü olduğun öz-özünə görünsün. Anardan güclü əsər qoysun o gənclik, və eyni zamanda dünyaya özlərini tanıtdırsınlar. Bu mənəvi hakimiyyət elə bir güclü silahdır ki, hamı onun tabe olacaq, təzim edəcək, ona bağlanacaq. İnsanlar sənin kitabını oxuyanda Anarın kitabı sarsılacaq, onun Yazıçılar Birliyindəki idarəetmə çubuğu sınacaq. Hamı da görəcək ki, hər hansı bir önəmli bir əsər deyil, əksinə, tormozlayıcı qüvvədir və gəncliyin qabağında buxovlayıcı bir rol oynayır. Ona görə də mən düşünürəm ki, Azərbaycan hakimiyyəti istənilən istedadlı yaradıcı insanlarla da işləməyə çalışır. Əkrəm Əylisli məgər "Erməni yuxuları"na qədər hansı iş qalmışdı ki, dövlətdən istifadə etməsin? Məgər onun övladına qədər, özü daxil, Naxçıvanda məlum ünvandakı evinə qədər də, məhz bu hakimiyyətin, verilən qayğıların, diqqətin fonunda baş verməmişdimi? Amma Markesə dövlət ev verməmişdi. Ümumiyyətlə, dünyada yazıçılar birliyi anlayışı xeyli fərqlidir. Azərbaycanda bu, varsa, sadəcə, bir gənc adamı götürüb həmin qurumun rəhbəri qoymaqla tam situasiya dəyişəcək və yaşlılar ölüb, yeni bir yazıçılar ordusu meydana çıxacaq, bir az buna skeptik yanaşıram".

**Gənc yazarlar isə məsələyə fərqli yanaşırlar. Əsəd Qaraqaplanın sözlərinə görə, qoca-cavan məsələsi şərtidir:** "Sadəcə, ruhu qoca olan cavanlar da var bu sırada və onlar daha da çoxluq təşkil edirlər. Qoca ruhlar hiyləgər və təhlükəli olurlar, ona görə də onların bu potensialından yararlanmaq həmişə işə yarayır".

**İradə Aytelin fikrincə, yaşlı nəsil yazarları hakimiyyətə 21 illik davamiyyətini qorumaq üçün lazımdır:** "Yazarlar cəmiyyətin şüuruna güclü təsir göstərir. Bu təsiri ələ almaq üçün lazımdır. Vəsf üçün, tərif üçün, "yaşasın partiyamız" üçün, müxtəlif mükafatların, təqaüdlərin ömrünün qısa olması üçün lazımdır. Axı həm də onlar Stalin rejiminin, 37 qurbanlarının canlı şahidləridir. Lütfən, yuxarıda sadaladığım keyfiyyətlərə bəzi gənc yazarları da aid etməyi unutmayın".

**Cavid Zeynallı isə məsələyə qoca prizmasından baxmağı düzgün hesab etmir: "Klassikləri qorumaq lazımdır".**

❑ **RÖYA**

# "Duzlu göl" xəstəlik mənbəyidir?"

## Əməkdaşımız insanların şəfa tapmaq üçün getdiyi "Duzlu göl"də gördüklərindən yazır; Həkim: "Gölə gedib dərd tapanlar var"

**Hövsan-Zığ magistral yolunun kənarında yerləşən "Duzlu göl" xəstəlik mənbəyinə çevrilib. Bunu redaksiyamıza müraciət edən daimi oxucularımız deyir. Onların sözlərinə görə, şəfa tapmaq məqsədilə getdikləri "Duzlu göl"dən yeni xəstəliklər tapıblar. Oxucularımız iddia edir ki, antisanitariya şəraitinin hökm sürüdüyü göldə çimib, palçıq vannası qəbul etdikdən sonra dəri xəstəliyinə düçar olublar. Mövzu ilə bağlı ötən gün Hövsan-Zığ magistral yoluna yaxın yerləşən gölə gedib, oradakı vəziyyəti öyrənməyə çalışdıq.**

### 5 manata palçıq vannası

Şəhərdən üzü Hövsana gedəndə yolun sağında olan gölə gedən yol bərbad gündədir. Gölə giriş üçün 50 qəpik ödəməlisən. Gölün ərazisi zibil içindədir. Boş su qabları və sellofan torbalar göydə uçuşur. Paltar dəyişmək üçün kiçik bir butkanın qarşısında saatlarla gözləməli olursan. Birinci dəfə gələnlərə suda çox qalmamaq məsləhət görülür. Daha sonra palçıq vannası qəbul etmək istəyənlər üçün sifariş qəbul olunur. Təxminən 18-20 yaşlarındakı gənc gölə gələnlərə yaxınlaşıb sifarişləri qəbul edir. Təzə palçıq istəyənlər bu xidmətə görə 5 manat ödəməlidir. Qiymətin niyə belə baha olduğunu soruşuruq. **Ramin adlı işçi deyir ki, gölün ortasına gedib, əlləri ilə palçıq yığırlar:** "Palçığı əvvəlcədən yığıb saxlamaq olmur. Gün qurudur. Ona görə kim palçıq vannası qəbul etmək istəyirsə, yaxınlaşıb sifarişini qeyd edirik. Təxminən yarım saata onun üçün palçıq vannası düzəldirik. Olduqca zəhmətli işdir".

**Bəs palçıq vannasının nə kimi xeyri var? Sualımıza Ramin bu şəkildə cavab verir:** "Çoxları bura həkim məsləhəti ilə gəlir. Tez-tez həkimlər gəlib palçıqdan nümunə götürüb laboratoriyada yoxlayırlar. Əgər ziyanlı bir şey olsaydı həkimlər xəstələrinə palçıq vannasını məsləhət görməzdilər. Bu palçığa yod qatılır. "Duzlu göl"dən çıxarılan palçıqda mikrob ola bilməz. Palçığı yodla yoğurduqdan sonra vannalara tökürük. Bəziləri vannaya girib, saatlarla gözləyir. Bəziləri isə palçığı bədənlərinə sürtüb günəşlənir".



### "Natəmizlik içində nə xeyir tapacağıq?"

**Göldə çimən paytaxt sakini Adil Məmmədov deyir ki, hər gün olmasa da, vaxtaşırı bu gölə gəlir:** "Dəri xəstəliyim var. Həkim dedi get "Duzlu göl"də çim. Bir aydır bura gəlirəm, xeyli irəliləyiş var. Yaxşı olardı ki, buranı kimsə götürüb sanatoriyaya çevirsin. Zibil əlindən tərpənmək olmur. Göldə çimdiyimiz yerdə bir də görürsən boş su butulkası az qalsın ağzına girə. Əllərinə nə keçdi gölə atırlar. Gölün kənarında zibil atmaq üçün qutular qoysaydılar yaxşı olardı. Buranın cəmi 2-3 işçisi var. Onların da biri qapıda pul yığır, digərləri isə palçıq satırlar. Burda səliqə-sahman və təmizlik olsa gələnlərin sayı çox olardı. Belə yerləri qoruyub, saxlamaq lazımdır. Yoxsa natəmizlik içində nə şəfa tapacağıq?"

Ərazidə olarkən öyrəndik ki, göldən 100-150 kilometr aralıda yodla zəngin bulaq var. Yodlu su yerdən qaynayaraq çıxsa da, su çox soyuqdur. Orada olarkən öyrəndik ki, bu su boğazdakı ağrılara, faringit, zob və astma xəstəliklərinə xeyirdir. Bulağın suyu axaraq çökəkliklərə dolur. "Duzlu göl"ə gələnlərin çoxu bura da baş çəkərək əl-üzlərini yuyub, bulağın suyundan içirlər. Təəssüflər olsun ki, burda da natəmizlik hökm sürür.







### Həkim nə deyir?

**Mövzu ilə bağlı danışdığımız 1 saylı şəhər Kliniki Xəstəxananın tanınmış dermatoloqu, həkim Adil Qəmbərov bildirdi ki, yaxşı olardı ki, o gölün suyu və palçıq yüksək avadanlıqla təchiz olunmuş laboratoriyalarda yoxlanılsın:** "Həmin gölə gedib dərd tapanlar var. Neçəsi mənə müraciət edib. Ötən gün özüm həmin gölə gedib sudan və palçıqdan nümunə götürdüm. Paslı vannalardakı palçığa girmək üçün növbəyə dururlar. Bilmirlər, bəlkə birinin ağır dəri xəstəliyi var. O xəstəlik keçici də ola bilər. İnsanlar bu barədə qətiyyən düşünmürlər. Kor-koranə palçıq vannası qəbul edib, göldə çimirlər. Belə yerlərə getməmişdən mütləq həkimlə məsləhətləşmələr aparmaq lazımdır. Mən gördüm insanlar bədənlərinə tərkibini bilmədikləri palçığı yaxıb saatlarla günəşin altında qalırlar. Qətiyyən belə olmaz".

**Adil həkimin sözlərinə görə, suyun və palçığın tərkibi öyrənilmədən heç kəs onun xeyri barədə danışa bilməz.**

❑ **Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014

# İstirahətə getmək istəyənlər bu yazını oxusun...

## Mükəmməl məzuniyyət keçirmənin qızıl qaydaları nələrdir?

**"İstirahətə vaxt tapa bilməyən insanlar, gec-tez xəstəliyə vaxt tapmağa məcbur olacaqlar". Bu sözlər Con Vanameykerə məxsusdur.**

Yay istirahəti üçün insanların planlar qurduğu, bəzilərinin planlar həyata keçirdiyi bir ərəfədə biz normal istirahət modellərindən yazmaq istəyirik. Amma onlara keçmədən öncə yayda istirahət etməyən, edə bilməyən, etməyi vacib saymayan, bunun əhəmiyyətsiz olduğunu düşünənlər ordusudur hədəfimiz. Çoxumuzun ətrafında belələri var.

### İstirahət etməyənlər ordusu - onlar sabahkı günlə yaşayırlar

Məlum məsələdir ki, məzuniyyətə çıxmayanların bir neçə səbəbi var: işlərin çoxluğu, istirahət üçün pulun olmaması, səyahət üçün sizə yoldaşlıq edən birisinin yoxluğu... Psixoloqlar deyir ki, istirahət etmək istəməyən bununla bağlı özünə xeyli bəhanə tapa bilər: xəstə qohumunun olmasından tutmuş, itini evdə tək qoymaq istəməməyə, evini təmir etdirməli olduğuna qədər saysız-hesabsız bəhanə...

Belə insanlarla bağlı nə baş verir? Onlar çoxlu xəyallar qururlar, daha sonra xəyalları baş tutmadığı üçün acı çəkirlər. Amma mütəxəssislərin rəyinə inansaq, bu cür adamlar heç də istirahət etməyi planlaşdırmır. Onlar quru-quru xəyallar qururlar. Çünki gerçəkdən nəyisə arzulayan insan - xüsusən nəzərə alsaq ki, istirahət etmək arzusu o qədər də əlçatmaz deyil-onu əldə etməyin yollarını da tapır. Amma yorulduğu üçün iş əmsalının aşağı düşdüyünü, artıq işləməyin qeyri-mümkün olduğunu deyib də istirahətə çıxmayan adamın addımını isə intiharla müqayisə etmək olar.

Amma bəzi insanlar da var ki, onlar istirahətin vaxt itkisi olduğunu, ancaq tənbəllərin istirahət haqqında düşündüyünü iddia edirlər. Belə insanlar sabahkı günlə yaşayırlar. Onlar düşünürlər ki, əgər indi yaxşı işləyib pul qazansalar, gələcəkdə arzularını yerinə yetirə bilərlər. Bundan sonra isə istirahət haqda düşünmək olar. Amma bu zaman vaxtın insanı necə "udduğunu" unudurlar. Bu psixologiyanın səbəbi isə insanın uşaqlıq qatlarında gizlənib. Belə adamlara uşaq vaxtı insanın işləmək üçün yarandığını təlqin ediblər. Halbuki başlanğıc üçün uşağa oyuncaqları ilə oynamaq, evdə tək qalarsa, özünə maraqlı əyləncə tapmaq öyrədilməlidir.

Bundan başqa, həmin adamlara uşaq vaxtı daim güclü olmaları, emosiyalara qapılmamaları öyrədilib. Bax, belə güclü və bədbəxt adamlar işləyirlər, əllərini bir dəqiqə boş qoymadan çalışırlar. Təbii ki, onlar kollektivdə özlərinə böyük önəm verirlər. Onlar üçün kollektiv çox şey deməkdir. Amma bu tiplər üçün cəhənnəm təqaüdə çıxanda başlanır. Bu zaman sözün həqiqi mənasında tənha həyat yollarını gözləyir. Bu adam gününü necə keçirəcəyini bilmir. Anlayışı yoxdur ki, işdən başqa nə iləsə məşğul olmaq olar.

### Ən yaxşı üsul - məzuniyyəti bir neçə hissəyə bölmək...

Məzuniyyət isə əslində bizim bütün il boyu səbirsizliklə gözlədiyimiz dönəmdir. Bizim daha sonrakı hal-əhvalımız, işgüzarlıq əmsalımız məhz məzuniyyətin necə keçməsindən asılıdır. Mütəxəssislər müəyyənləşdiriblər ki, məzuniyyət zamanı istirahət etməyi bacarmaq da xüsusi qabiliyyət tələb edir.




Əsas odur ki, boş vaxtı necə planlaşdırmağı və təşkil etməyi bacarasan.

Bəzi adamlar üçün uzun məzuniyyətdən sonra işə adaptasiya olunmaq olduqca çətindir. Bir çox adamlar məhz məzuniyyət dönəmindən sonra iş yerini dəyişir və ya işdən çıxır. Buna görə də 21 günlük və ya 1 aylıq məzuniyyəti bir neçə hissəyə bölmək məsləhət görülür. Həm də bu hissələri ilin ayrı-ayrı fəsillərinə "atmaq" olar: bir həftəsini qışda, bir həftəsini yazda, qalanını payızda... Belə olanda insan özünü daha azad və rahat hiss edir.

Bir çox insan məzuniyyət zamanı böyük işlərlə məşğul olur. Məsələn, evini təmir edirir. Doğrudur, bu da insanın öz həyatını yüngülləşdirməsi məqsədi daşıyır. Amma planlı insanlar təmiri işlədikləri vaxt da edə bilər, buna xüsusi vaxt ayırmadan təmir problemini yoluna qoya bilərlər. Çünki onsuz da yorulmuş insanın təmir kimi bir ağır yükün altına girməsi onun səhhətinə olduqca pis təsir edəcək.

### İdeal məzuniyyətin şərtləri...

Axı məzuniyyət məhz ona görə yaranıb ki, insan istirahət etsin, yorğunluğunu üzərindən atsın və sair. Yaxşı istirahət üçün aşağıdakı şərtlər mövcuddur.

Əvvəlcədən bilməlisən ki, sənin yaxşı istirahət etməyin, dincini almağın üçün neçə gün lazımdır.

Kurort və istirahət mərkəzləri barədə saysız-hesabsız məlumatlar, turistlərin təəssürat xəbərləri var. Onları ciddi şəkildə izləmək lazımdır ki, getdiyin istirahət məkanında yanılmayasan, istirahətin korlanmasın.

Kurortdakı bütün hərəkətləriniz planlaşdırılmış olmalıdır. Baş çəkmək istədiyiniz maraqlı yerlərin siyahısını hazırlayın.

Əgər getdiyiniz kurort sizə bədəninizin qayğısına qalmaq üçün müxtəlif tibbi prosedurlar, məsələn, masaj, mineral vannalar təklif edirsə, ondan imtina etməyin.

Yol yoldaşınızı seçəndə ehtiyatlı olun. Bəzən məzuniyyətinizin korlanmasına yol yoldaşınız və onun kaprizləri səbəb ola bilər.

### Məzuniyyətə çıxmamaq ciddi psixoloji problemlərin başlanğıcıdır

İstirahət aktiv və passiv olur. Passiv istirahət zamanı adam heç bir işlə məşğul olmur. Aktiv istirahət zamanı isə gəzintiyə, səfərə çıxır, idmanla məşğul olur, ya da, heç olmasa, məşğuliyyətini dəyişir. Həm fiziki, həm də zehni əməkdən sonra bərk yorulduqda əvvəl passiv istirahət etmək və ancaq bundan sonra aktiv istirahətə keçmək lazımdır. Orta yorğunluq isə aktiv istirahətlə keçir. Aktiv istirahət qabiliyyətini hər kəs özündə tərbiyə etməlidir. Bu, adamın vərdişinə çevrilməlidir. İstirahət nə üçün lazımdır? İtirilmiş enerjini bərpa etmək, sağlamlığın qorunması, psixi rahatlığın təmin olunması və iş qabiliyyətinin artırılması üçün istirahət etmək lazımdır. İstirahət ilk növbədə insanı həm fiziki, həm də psixi cəhətdən enerji ilə təmin edir. Uzun müddət istirahət etmədikdə nə baş verir? Ümumiyyətlə, uzun müddət istirahət etməmək insanın psixoloji durumu ilə yanaşı, sağlamlığına, iş qabiliyyətinə də mənfi təsir göstərir. İstirahət etmədikdə adam yorğun, əzgin, enerjisiz, əsəbi və daim yuxulu olur. Bütün bu simptomlar xroniki yorğunluğun yaranmasına və başqa qarşısı alınmayan xəstəliklər kimi gələcək daha da ağırlaşır. Nəticədə səbəbsiz qorxular, narahatçılıq hissi, əzələdə ağrılar özünü göstərməyə başlayır. Uzun müddət istirahət etmədikdə yaddaş pozğunluğu da yaranır. Bu zaman nəyisə yadda saxlamaq, fikrini cəmləmək, sadə məsələləri belə həll etmək çətinləşir. Misal üçün, məntiqi məsələləri həll etmək üçün ona adi halda tələb olunandan daha çox vaxt lazım olur. Yorğunluq immun sisteminə də təsir göstərir. İmmun sistemi zəifləyir, insan xəstəliklərin, virusların, bakteriyaların qarşısında aciz qalır.

❑ **Sevinc TELMANQIZI**

---

# "Niyə intihar etməliyəm ki?"

## Müğənni Ziyəddin Səfərov saytlarda gedən açıqlamasının təhrif olunduğunu deyir

**"Bülbüllər - 1984" Respublika Mahnı Festivalının qalibi, müğənni Ziyəddin Səfərov musavat.com-a müraciət edib. Müğənni bir neçə gün öncə saytlarda gedən açıqlamasının təhrif olunduğunu deyib. Onun sözlərinə görə, intihar edəcəyini heç yerdə deməyib.**

Z.Səfərov kimlərəsə borcu olmadığını da vurğulayıb. "Mən həyatda çox çətinlik görmüşəm. Öz gücümə ayaqda dayanmışam. Heç kəsdən asılı olmamışam. Bu günə kimi də Allahdan başqa bir kəsə borcum yoxdur. Ancaq saytlar açıqlamamı təhrif edib yazıblar ki, guya borc içində boğuluram, intihar edəcəyəm. Bunu oxuyan dost var, düşmən var. Deməzlər ki, sənin kimə borcun var? Ayıbdır. Jurnalistlər diqqətli olsunlar. Mən heç kəsə borclu deyiləm. Üstəlik, yazıblar ki, intihar edəcəyəm. Niyə həyatıma qəsd etməliyəm? Ömür qabaqdadır, gələcək var. Ailəm, övladlarımla yaşayıram. Şükür buna da, birtəhər dolanırıq, keçinirik. Ac deyilik, kiməsə möhtac olmamışıq".

**Z.Səfərov qeyd edib ki, saytlara verdiyi açıqlamada müğənni kimi sənətdə irəliləməsinə sponsorlardan dəstək istəyib:** "Mən Zakir Əliyev, Könül Kərimova, Gülüstan Əliyeva, Aybəniz Haşımova, Könül Xasıyeva kimi sənətdə sözünü demiş ifaçılarla birlikdə oxumuşam. Onlar məni yaxşı tanıyır. Ancaq kömək etmirlər. Hər kəs özünü düşünür. İndi hansı studiyaya üz tuturam, pul istəyirlər. Bircə Zaur Kamal "Xəzər" telekanalında "Ay Zaur" verilişinə məni 8 dəfə çağırıb, təmənnasız efir vaxtı ayırıb. Qalan heç kim efirə çağırmır, studiyalar pul istəyir. Sponsorlardan, vicdanlı adamlardan kömək gözləyirəm. İndiki dövrdə qızlara, qadınlara pul xərcləyirlər. Gərək qadın olasan ki, sənə sənətdə inkişaf etməyə əl uzatsınlar? Dədə-baba vaxtı belə olmayıb. Bir vicdanlı adamlar bizə də yardım etsin".

Müğənni söyləyib ki, nə restoranlarda onu oxumağa çağırırlar, nə də toylara: "Ayda-ildə bir toya çağırırlar. Mən 7 ildir kirayədə yaşayıram. Binəqədidə torpaq almışam, tikə bilmirəm. Çünki iş yoxdur. Əvvəla, hökumət kömək etməlidir. Əgər etmirsə, yaxşı adamlar kömək eləsin. Adımdan yazıblar ki, intihar edəcəyəm. Sadəcə, haqsızlıq görəndə adam intihar həddinə çatır, yaşamaq istəmirsən, vətəndən baş götürüb getmək istəmirsən. Mənə şərait yaradılmır. Azərbaycan cəmi 10 faiz adamındırsa, qalanı çıxıb getsin də. Jurnalistlər də yazanda diqqətli olsunlar, təhrif etməsinlər. Mən intihar edəcəyim barədə xəbərdarlıq etməmişəm".

❑ **EMİL**

---

# "Oğlumun cibinə polis narkotik atıb"

## Beş uşaq anası dövlət başçısına müraciət edib kömək istədi

**Paytaxt sakini, təqaüdçü və beş uşaq anası Aidə Şahverdiyeva redaksiyamıza şikayət məktubu göndərib. O bildirir ki, oğlu Vahid Rüstəmovun üstünə polis külli miqdarda narkotik ittihamı atıb və o həbs edilib: "Mənim sizə şikayətim Yasamal polisinin özbaşınalıqlarından, prokurorun qanunsuzluğundan və məhkəmə hakiminin ədalətsizliyindəndir. Oğlumun cibinə polis narkotik atıb. Oğlum Vahid Rüstəmov 2014-cü il fevralın 5-də həbs edilib. Onun həbsindən sonra istintaq təcridxanasında görüşdüm və o, başına açılan qanunsuzluqları mənə bildirdi.**

Belə ki, o, dostu Əli Abbazadə ilə bərabər növbəti dəfə Azərbaycan prospektində yerləşən aptekdən "travamal" deyilən həbb almaq üçün gedərkən tutulub. 26-cı polis bölməsinin sahə müvəkkili Nazim Dünyamalıyev ona bildirib ki, Yasamal rayonunda oğurluq hadisəsi baş verib və ona görə bölməyə getmək lazımdır. Oğlum da etiraz etməyib, dostu ilə əvvəlcə sahə məntəqəsinə, oradan da Yasamal Rayon Polis İdarəsinə gedib. Burada oğlumu narkotik qəbul etməkdə təqsirləndirərək bildiriblər ki, üzərindən külli miqdarda narkotik, yəni tiryək çıxıb. Oğlum işgəncələrə baxmayaraq heç bir protokola qol çəkməyib və ifadəsində bildirib ki, o, polis idarəsinə Nazim Dünyamalıyev və adı sonradan məlum olan polis serjantı Emin Məlikov tərəfindən gətirilib".

**Şikayətçi bildirir ki, mayın 1-dən start götürən məhkəmə hələ də davam edir:** "Hakim Sərdar Mehrəliyev və dövlət ittihamçısı Rizvan Soltanov sanki bir teatr arenasında oturublar. Müstəntiq bir ssenari yazıb, hakimlə dövlət ittihamçısı bu ssenarini səhnələşdirirlər. Məhkəmədə dindirilən şahidlər isə istintaqda verdikləri ifadələrdən fərqli fikir bildirirlər. Oğlumla birgə tutulan Əli Babazadənin də işinə həmin məhkəmədə baxılır. Oğlumun vəkili vəsatət qaldırıb ki, Əli məhkəməyə şahid kimi gətirilsin, amma hakim həmin vəsatəti rədd edib. Əli də oğlumun onun məhkəməsində şahid kimi iştirakını istəyir".

Aidə Şahverdiyevanın sözlərinə görə, baş verənlərlə bağlı dövlət başçısına, Respublika Prokurorluğuna və daha bir neçə quruma müraciət etsə də, nəticəsi olmayıb. Əlində sübutlar olduğunu bildirən xanım növbəti dəfə ölkə başçısına müraciət edərək həqiqətin ortaya çıxması üçün kömək istəyir. Məhkəmə iyulun 10-da onun oğluna hökm oxuyacaq.

**Daxili İşlər Nazirliyindən isə şikayətçinin ittihamlarına cavab verilib:** "Belə başa düşdüm ki, adam həbs olunub, cinayət işinin istintaqı yekunlaşıb, indi də hökm oxunacaq. Vahid Rüstəmov narkotiklə tutulub, heç bir ana deməz ki, mənim oğlum narkomandır. Amma hüquq-mühafizə orqanları istintaq aparıb, bunlar hamısı yalandır? Ana getsin məhkəməyə, vəkilləri gedib şikayətini, etirazını orada bildirsin. O, Daxili İşlər Nazirliyinə rəsmi şəkildə müraciət etsə, məsələ araşdırıla bilər".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 175 (5884) 10 iyul 2014

# Bakının həllini tapmayan problemi-zibilliklər

## Telman Zeynalov: "Bakıda ekoloji durum acınacaqlı vəziyyətdədir"

**"Bura zibil atanın atasına lənət", "Bura zibil atma ay..." bu tipli söyüş-elanlara demək olar ki, Bakının əksər küçələrində rast gəlmək mümkündür. Paytaxtın elə küçələri var ki, orada mənzərə, ümumiyyətlə, ürəkbulandırandır. Şəhərə erkən çıxanlar belə mənzərə ilə yaxşı tanışdılar - zibil qutuları aşıb-daşır, ətraf üfunət içindədir. İşə tələsən şəhər sakinləri əllərindəki torbanı bir neçə metr kənardan qutuya tərəf tullayır. İsti havalarda isə bu zibil qurularının yanından keçmək daha dözülməz olur.**

İsti havada zibilliyə yığışan həşəratlar və üfunət iyi ətrafda yaşayan insanların sağlamlığı üçün də böyük təhlükə mənbəyidir.

Dəfələrlə mətbuatda Bakının əbədi problemi olan zibilliklərdən yazılsa, danışılsa da hələ ki bu məsələdə ciddi irəliləyiş yoxdur. Bu problem ölkənin imicinə də xələl gətirir. Belə ki, ölkə haqqında təəssürat onun hava limanında, dəmiryolu, avtobus vağzallarındakı tualetlərin və şəhərdəki zibilxanaların vəziyyəti əsasında formalaşır. Əcnəbilərdə Bakı barədə hansı təəssüratların olduğunu deyə bilməsək də, hər halda, mövcud zibilliklər şəhər haqda müsbət fikir yaratmır. Bəzən də insanlar zibil qutusu olmadığı üçün əlacsızlıqdan zibili yerə atdıqlarını deyirlər. Elə Montin ərazisində yaşayan paytaxt sakini Nərmin Ağayeva kimi.

**N.Ağayeva zibil qutuları olmadığı üçün zibili yerə atdığını deyir:** "Tək mən yox, qonşuların əksəriyyəti də zibili yolun kənarına qoyur. Başqa nə edək? Zibili əlimizə alıb avtobusa minib zibil qutusu axtaraq?! Şəhərin bəzi yerlərində iki addımdan zibil qutusu var. Bəzi yerlərində isə bir zibil yeşiyi belə yoxdur".

Təbriz küçəsində də mənzərə fərqli idi. İki zibil qutusunun yanbayan olmasına baxmayaraq, yoldan keçən xanımın zibili zibil qutusundan kənara atdığının şahidi olduq. Yaxınlaşıb niyə belə etdiyini soruşduqda isə "tələsirəm, zibil qutusunun yanına getsəm zibilin iyi üstümə hopacaq" deyə, məntiqə sığmayan bir cavab verdi. Görünür ki, bəzi insanlar düşünür ki, biz öz evimizi, özümüzü təmiz saxlayaq, küçə-bayır çirklənsə də olar. Ancaq nəzərə almaq lazımdır ki, sabah bu zibilin ziyanını elə özümüz çəkəcəyik. O zibilin, mikrobun, infeksiyaların havasını udub, onları ayaqlarımızla evimizin içinə kimi gətirəcəyik.

Qeyd edək ki, hazırda zibil qutularına daha çox dayanacaqların yaxınlığında rast gəlinsə də, bəzilərinin nəinki yanında, heç yaxınlığında belə urnalar yoxdur. Xatırladaq ki, 2 il öncə parlamentdə "İstehsalat və məişət tullantıları haqqında" Qanuna və İnzibati Xətalar Məcəlləsinə bir sıra dəyişikliklər edilib. Həmin dəyişikliyə əsasən, zərərsizləşdirmək məqsədilə məişət tullantıları tutumlara - urnalara atılmalıdır. Bu tullantıların urnalardan kənar yerlərə atılması, həmin yerlərdə saxlanılması və ya basdırılması qadağandır. Həmçinin şəhərlərdə və rayon (şəhər rayonları istisna olmaqla) inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində urnalar arası məsafə 100 metrdən çox olmamalıdır. Məişət tullantılarının urnalardan kənar yerlərə atılması, həmin yerlərdə saxlanılmasına görə fiziki şəxslər 20 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər isə 500 manat həcmində cərimə olunacaq. Ancaq təəssüflər olsun ki, üzərindən iki il keçməsinə baxmayaraq, hələ də sözügedən qanuna tam şəkildə əməl olunmur.







Qeyd edək ki, bizdən fərqli olaraq xarici ölkələrdə ciddi zibillik mədəniyyəti formalaşıb. Belə ki, hökumət bu istiqamətdə bir sıra maarifləndirici tədbirlər aparıb. Vətəndaşlara üç rəngdə torbalar verilir. Ərzaq, bərk və kimyəvi xarakterli tullantılar uyğun torbalara yığılır. Həmin torbalar ayrı-ayrılıqda müvafiq zavodlara daşınır və təyinatları üzrə istifadə edilir.

**Ekoloq Telman Zeynalov paytaxtda ekoloji vəziyyətin pis olduğunu dedi:** "Bakıda ekoloji durum acınacaqlıdır. Zibilliklər vaxtı-vaxtında yığışdırılmır, üfunət iyi aləmi basır, milçəklər, həşəratlar zibilliklərə yığışırlar. Bu da xəstəlik mənbəyidir. Bu işlərə Ekologiya Nazirliyi, icra nümayəndələri nəzarət etməlidir. Bir az külək əsən kimi bütün zibilliklər havaya qalxır, plastmas qablar, sellofan torbaların hamısı demək olar ki, ağacların üstündə olur. Zibilliklərin hamısını bir qaba töküb aparırlar. Heç kəs zibilliklərin ayrılmasına fikir vermir. Mənə elə gəlir ki, prezidentin Nazirlər Kabinetinə verdiyi sərəncamlar vaxtı-vaxtında yerinə yetirilməli və buna nəzarət mexanizmi olmalıdır".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Qazax yolunda iki nəfər "QAZel"də diri-diri yandı

**Qazax yolunun Ucar rayonunun Yeniyol kəndindən keçən hissəsində dəhşətli yol qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, buğda daşıyan "QAZel" markalı avtomobillə yanacaq daşıyan yük maşını toqquşub. Toqquşma nəticəsində yanğın baş verib. Hər iki avtomobil yanıb. "QAZel"də olan iki nəfərin yanaraq öldüyü bildirilir. Yanacaq daşıyan avtomobilin sürücüsü isə ağır yanıq xəsarətləri ilə xəstəxanaya çatdırılıb.**

Hadisə yerinə gələn yanğınsöndürənlər alovun yayılmasının qarşısını alıblar.

Bakı-Qazax yolunda bir müddət tıxac yaranıb.

## Beynəlxalq Təhsil Mərkəzi

*Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.*

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

ORİJİNAL AKSESUARLAR
Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan
"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS
English EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.
(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63
(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)

YENİ MÜSAVAT

Son səhifə

N 175 (5884) 10 iyul 2014

# Şahzadə atdan yıxıldı

Monako şahzadəsi Şarlotta Kasiraginin atdan düşməsi dünya mediasının gündəmindəki ən önəmli məsələlərdən birinə çevrilib. Şahzadənin mindiyi Qorvliler Tintero adlı at müvazinətini itirib yıxıldığı üçün Ş.Kasiragi də atın üstündən yerə düşüb. 2009-cu ildən bəri at minmək dərsləri alan Şahzadə bir neçə dəfə yarışlarda iştirak edib. Ötən il oğlu dünyaya gəldikdən sonra bir müddət ata minə bilməyən Şahzadə yenidən köhnə hobbisini davam etdirir. Şahzadə bir neçə ay əvvəl Monte-Karlodakı at yarışlarında birinci yerə çıxmışdı.





## Ən böyük uçan canlı

Amerikalı alimlər dünyanın ən böyük uçan canlısının qalıqlarını tapıblar. Karolina ştatında tapılan canlının 25 milyon yaşı olduğu deyilir. Qanadlarının uzunluğu 6,4 metr olan qəribə canlı dünyanın ən böyük dəniz quşu hesab edilir. "Pelagornis sadersi" adı verilən quşun incə, uzun qanadları var və uzun müddət havada qala bilirmiş.



## Dünyanın ən uzun qızı

Dünyanın ən uzun qızının fotoları yayımlanıb. ANS PRESS-in məlumatına görə, "Ginnesin rekordlar kitabı"na düşən gənc qızın boyunun uzunluğu 2,13 metrdir. "Weaver" sindromundan əziyyət çəkən Rümeysa Gelgi adlı gənc qız bir çox əməliyyatlar keçirsə də, arzularına çata bilməyib. Həmin qız anadan olarkən 5 kilo 900 qram çəkidə və 59 santimetr uzunluğunda olub. Gelgiyə 2 aylıq olarkən ürəyində dəlik olduğu deyilib. Boyu və çəkisi sürətlə artan Rümeysa 1 yaşında ürək əməliyyatı keçirib. Sürətli böyümə səbəbi ilə əzələləri zəif olan və gəzə bilməyən gənc qız xüsusi qurğu vasitəsilə yeriyə bilir. Rümeysanın 6 yaşında böyüməsinin qarşısını almaq məqsədilə müalicəyə başlanıb. 6 yaşında olarkən boyu 1 metr 76 santimetr, çəkisi isə təxminən 65 kiloqram olan Gelgi 11 yaşında 2 metr 5 santimetrə, 17 yaşında isə 2,13 metrə çataraq "Ginnesin rekordlar kitabı"na düşüb.

# Qızılı saçlıların nəsli tükənəcək

Son zamanlarda aparılan araşdırmalar nəticəsində məlum olub ki, qlobal istiləşmə qızılı saçlıların nəslinin tükənməsinə səbəb ola bilər. DNT analizləri edən mütəxəssislər dərilərinin rəngi açıq, saçlarının rəngi qırmızı olan insanların günəş işıqlarına tab gətirə bilməyəcəklərini deyiblər. Daha çox Şotlandiya, İrlandiya və İngiltərədə yaşayan qızılı saçlıların geninin zəif olduğu, məhz bu səbəbdən də qlobal istiləşməyə tab gətirə bilməyəcəkləri deyilir. "İndependent" qəzetinin xəbərinə görə, belə adamlar buludlu havalarda özlərini yaxşı hiss edirlər və soyuq iqlimə malik olan ölkələrdə daha uzun yaşayırlar. Adının açıqlanmasını istəməyən başqa bir mütəxəssis də bir neçə əsr sonra qızılı saçlılarla birlikdə mavi gözlülərin də nəslinin tükənəcəyini açıqlayıb.

Dünyadakı insanların yalnız 1-2 faizi qızılı saçlılardan ibarətdir. Şotlandiyada isə əhalinin 13 faizi qızılı saçlılardan ibarətdir. Mütəxəssislər qlobal istiləşmənin təsiri ilə 2100-cü ildə hava temperaturunun normadan 5 dərəcə çox olacağını açıqlayıblar.





## 1 həftədə 77 min zəng

Amerikada yaşayan qadın bir həftədə sevgilisinə 77 min dəfə zəng edərək rekord qırıb. Linda Murfi adlı qadın 3 həftə əvvəl tanış olduğu sevgilisindən ayrılıb. O, çox sevdiyini iddia etdiyi sevgilisini 77 min 639 dəfə axtarıb. 1 həftə ərzində sevgilisinə zəng etməklə qalmayıb. Ona 41 min 229 dəfə mesaj yazıb, 217 ədəd səsli mesaj və 1937 dəfə mail göndərib, 647 dəfə məktub yazıb. Köhnə sevgilisinin mesajlarından və zənglərindən bezən oğlan ondan polisə şikayət edib. Həbs edilən qadın qeyri-adi hərəkətlərinə görə ölkənin ən tanınmış adamlarından birinə çevrilib. Psixi problemləri olan qadın sevgilisinə zəng edib, mesaj yazmaq üçün 3 ədəd telefon aldığını etiraf edib. Həm mobil, həm iş, həm də ev telefonundan istifadə edən qadın 1 həftə ərzində yatmayıb və oyaq qalmaq üçün enerji dərmanları qəbul edib.

## Qoroskop




QOÇ - İyulun bu isti günündə emosional çıxışlara ara verməli, yalnız konkret işlərlə məşğul olmalısınız. Günün ikinci yarısını dost-tanışla, doğmalarınızla gəzinti və əyləncəyə həsr edin.

BUĞA - Bir qədər darıxdırıcı gündür. Amma bədbinləşib tək-tənha bir küncdə oturmaq da yaramaz. Heç olmasa, ulduzların "hə" dediyi maliyyə məsələləri ilə məşğul olun. İnsanlardan xoflanmayın.

ƏKİZLƏR - Bu gün rahat keçməsə belə, ciddi xoşagəlməzlik də olmayacaq. Nahardan sonra sizi sürprizlər gözləyir. Gələcək fəaliyyətiniz də məhz bundan asılı olacaq. Uzaq yola çıxmayın.

XƏRÇƏNG - Təkbaşına hansısa məsələyə müdaxilə etməyin. Əks təqdirdə, nəzərdə tutduğunuz ideyaları reallaşdıra bilməyəcəksiniz. Tərəfdaşlarınızın sayını artırın ki, qalib olasınız.

ŞİR - Astroloji göstəricilər böyük işlər görəcəyinizi, ağıllı risklər edəcəyinizi bəyan edir. Hətta maddi durumunuz imkan versə, uzaq yola da çıxa bilərsiniz. Qidanıza fikir verin.

QIZ - Hər mənada uğurlu gün yaşayacaqsınız. Şəxsi işlərinizdə, eləcə də qarşılıqlı münasibətlərdə vəziyyət xeyrinizə olacaq. Şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür.

TƏRƏZİ - Daxilən sıxıntılı ərəfə yaşayacaqsınız. Düzdür, ovqatınızı korlayan nəsnələr olmayacaq, lakin səbəbsiz nigarançılıqdan da uzaqlaşa bilməyəcəksiniz. Bu gün varlana da bilərsiniz.

ƏQRƏB - Narahatçılığınızı artıran məsələləri yoluna qoymaq üçün danışıqlara başlamağınız vacibdir. Həftə ərzində gözlənilən uğurlar üçün bunun böyük səmərəsi ola bilər. Təzə xəbər də gözlənilir.

OXATAN - Saat 14-ə qədər qeyri-ənənəvi işlərlə məşğul olmayın, xüsusən də nahar ərəfəsində. Sonrakı müddətdə isə işgüzar aktivliyinizi artırmalısınız. Bəxtinizdə pul da var.

OĞLAQ - Cərəyan edən hadisələr çıxardığınız qərarlardan asılı olacaq. Odur ki, əvvəl götür-qoy edin. Bu arada etibar etdiyiniz adamlardan kimsə sizə yalan sata bilər. Səfər də uğurludur.

SUTÖKƏN - Ciddi götür-qoy etməsəniz, həlledici məqamlarda yanıla bilərsiniz. Yersiz risklərə meylinizi azaldın. Sizə vəd verənləri mələk hesab etməyin. Sadəlövhlük insana zərər yetirir.

BALIQLAR - Daxili narahatçılığınız tədricən aradan qalxacaq. Sevdiyiniz adamlarla bir yerdə olmağınız nikbinliyinizi artıracaq. Bu arada kobud rəftardan və şit zarafatlardan uzaq durmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 34 il artıq yaşamaq istəyirsiniz?



Ömrümüzü uzatmaq əlimizdədir. "Men's Health" jurnalı uzunömürlülüyün sadə sirlərini yazıb. Jurnalın yazdığına görə, insan sadə əməllərlə ömrünü 34 ilə kimi uzada bilər. Belə ki, təmiz havada, kənd yerlərində yaşayanlar şəhərdə məskunlaşanlarla müqayisədə iki il çox yaşayırlar. Harvard Universiteti qara şokolad yeməyi məsləhət görür. Çünki həftənin 3 günü az miqdarda qara şokolad yeyənlər şirniyyat yeyənlərlə müqayisədə 5 il çox ömür sürür. İdman da ömrü uzadan amillərdəndir. Həftədə 3 gün 30 dəqiqə tennis oynamaqla 12 il çox yaşamaq mümkündür. Günlük kalori miqdarını azaltmaq isə daha çox fayda verə bilər. Belə ki, 30 faizlik azalma 15 il həyatdan zövq almaq deməkdir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 10.565

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.